Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

22-24 İYUN 2019-cu il

№ 109 (4007)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QARABAĞ DANIŞIQLARINA DAİR VAŞİNQTONDA YENİ SƏNƏDLƏR TƏQDİM OLUNUB?

səh. 8

MQ həmsədrləri ənənəvi ziyanlı yanaşmalarını yenə təkrarladı - atəşkəs pozuntusuna görə tərəflərin məsuliyyəti eyniləşdirildi...

səh. 3

Dünya ucuz dollar dövrünə daxil olur, Rusiya və Çin tədbirlərə başlayıb, bəs Azərbaycan...

səh. 7

Nağdsız ödənişlərin qəbulundan imtina edən sahibkarlar məsuliyyətə cəlb olunacaq

səh. 6

Körfəzdə böyük müharibə təhlükəsi... Tramp İranı vurmaq əmri verdi, hücuma 10 dəqiqə qalmış geri addım atdı

səh. 8

Yuxarıdan sosial inqilab siyasəti yoxsulluq səviyyəsinə necə təsir göstərəcək...

səh. 10

Cəmi 7 ayda 5 milyon Azərbaycan vətəndaşı 2,5 milyard manat pul aldı - əlavə olaraq...

səh. 10

May ayında milli valyutada əmanətlər 25 faiz çoxaldı - manata ictimai inamın yeni ifadəsi...

səh. 11



## Radikal düşərgə iyun sosial inqilab paketinə qarşı heç bir arqument çıxara bilmədi

səh. 4





Həmsədrlərin Vaşinqtonda tərəflərə «nəticəyə yönəlik konkret təkliflərinin» kodaltı mənası...

səh. 5

Ermənistan və Gürcüstanda anti-Rusiya çıxışlar hərəkata çevrilir - Azərbaycanın isə stabil müttəfiq imici möhkəmlənir

səh. 8

Sosial himayə paketləri ilə eyni vaxtda struktur və kadr islahatlarına dair daha bir nümunə - təcrübə özünü necə doğruldur...

səh. 3

səh. 2

Ramil Usubov Vilayət Eyvazovun rəhbərliyi ilə polisin daha böyük uğurlar qazanacağına inandığını bəyan etdi



səh. 4

Ermənistan əhalisinin düz 1 milyon azalacağını BMT hesabatı rəsmən təsdiqlədi



səh. 11

Minimum əməkhaqqının artımının bölgələrdən Bakıya işçi köçünə əks təsir göstərmək gücü...



səh. 15

Azərbaycanda kənd təsərrüfatı pay torpaqlarının birləşdirilməsi yenidən aktuallaşır...



səh. 12

Zibilə görə Bakı bələdiyyə sədrlərinin cəzalandırılmasına çoxdan başlamaq lazım idi...



# Ramil Usubov Vilayət Eyvazovun rəhbərliyi ilə polisin daha böyük uğurlar qazanacağına inandığını bəyan etdi

**Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Ramil Usubov daxili işlər orqanlarının şəxsi heyətinə müraciət edib.**



"Trend"in məlumatına görə, müraciətdə deyilir: "Əziz həmkarlar! Son 25 ildən artıq bir müddətdə sıralarında çiyin-çiyinə birgə xidmət etdiyimiz daxili işlər orqanları Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq mətinləşmiş, zamanın çətin sınaqlarından şərəflə çıxmış, Vətənə və xalqa xidmət missiyasını sədaqətlə yerinə yetirmişdir. Dövlətin Konstitusiya quruluşunun əsaslarının müdafiəsində xüsusilə fərqlənərək onun dayaqlarından birinə çevrilmiş, dəyərli ənənələr yaratmışdır.

Sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əvəzsiz diqqət və qayğısı sayəsində daha da inkişaf etmiş, müasirləşmişdir. Qloballaşan dünyanın yeni çağırış və təhdidlərinə adekvat cavab verməyə qadir olan daxili işlər orqanları bu gün xalqa, Vətənə, dövlətə və andına sadiqliyi ilə seçilir, Zati-alilərinin inam və etimadını doğruldur. Eyni zamanda, cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində üzərinə düşən vəzifələri, qarşıya qoyulmuş tapşırıqları yüksək məsuliyyət hissi və ləyaqətlə yerinə yetirərək möhtərəm Prezidentin rəhbərliyi altında ölkəmizin ən təhlükəsiz məkanlardan birinə çevrilməsi üçün olduqca əhəmiyyətli bir fəaliyyət ortaya qoyur.

Ölkə başçısının cari ilin iyun ayının 20-də imzaladığı sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi kimi yüksək və məsul dövlət vəzifəsinə təyin olunmağımla bərabər, uzun illər birlikdə çalışdığım, xalqına, dövlətinə, Prezidentinə bağlılığı və sədaqəti, böyük peşəkarlığı, idarəçilik və rəhbərlik bacarığı ilə seçilən nazirin birinci müavini polis general-leytenantı Vilayət Eyvazovun Daxili işlər naziri təyin edilməsi məni xüsusilə sevindirdi.

İnanıram ki, Siz, Daxili işlər naziri Vilayət Eyvazovun rəhbərliyi ilə bundan sonra da doğma Azərbaycana əzmlə xidmət edəcək, sabitliyin, vətəndaşlarımızın qanunla qorunan hüquq və azadlıqlarının keşiyində dəyanətlə duracaqsınız. Milli maraqları, dövlətçilik mənafelərini daim uca tutacaq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin davamlı inkişafı naminə həyata keçirdiyi mühüm tədbirlərə, xalqımızın dinc həyatının və asayişin qorunmasına layiqli töhfələr verəcəksiniz.

Fəxr edirəm ki, respublikamızda əminamanlığın, sabitliyin bərqərar olunmasında da nazir kimi mənə hər zaman yardımçı oldunuz, cəmiyyətdə polisin və Daxili Qoşunların nüfuzunun yüksəlməsi üçün səy və bacarığınızı əsirgəmədiniz. Gecəli-gündüzlü, yorulmaz və fədakar xidmətiniz daxili işlər orqanlarına xalqımız qarşısında şərəf və başucalıq gətirdi. Bütün bunlara görə Sizin hər birinizə dərin təşəkkürümü bildirir, möhkəm can sağlığı, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə yeni-yeni uğurlar arzulayıram".

# Ermənilər Bakıdan göndərilmiş dəvət məktubunu necə it-bata saldılar...

**Ermənistan nümayəndə heyətinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin Baş Assambleyasının Bakıda keçirilən 53-cü iclasında iştirakı üçün onlara zəmanət məktubları verilib.**




"Trend"in məlumatına görə, bunu QDİƏT Parlament Məclisinin baş katibi Asəf Hacıyev Ermənistan nümayəndə heyətinin iclasda iştirak etməməsinə münasibət bildirərkən deyib.

A.Hacıyev bildirib ki, Ermənistan nümayəndə heyəti, həmişə olduğu kimi, öncədən dəfələrlə zəmanət məktubu istədi: "Həmin məktub da onlara verildi. Azərbaycan bir daha dünyaya göstərdi ki, burada hər kəs üçün lazımi təhlükəsiz şərait yaradılır. Ermənistan həmişə olduğu kimi, əvvəlcə zəmanət məktubu istəyir və düşünür ki, biz onlara məktub verməyəcəyik".

Baş katib əlavə edib ki, bundan əvvəl Bakıda keçirilmiş Assambleyada da ermənilər dəfələrlə məktub istəyiblər: "Məktub göndərildi, amma sonra dedilər ki, gəlməyib. Biz onlara sübut etdik ki, məktub göndərilib və təsdiqləmisiniz. Ondan sonra Ermənistan nümayəndə heyəti etiraf etdi ki, məktub gəlib, ancaq parlamentin dəftərxanasında itirilib. Bu, qeyri-ciddi haldır. Ermənilər oyun oynayırlar".

Qeyd edək ki, iyunun 20-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclası başlayıb. İclasın gündəliyinə QDİƏT-in iqtisadiyyat, ticarət, texnologiya və ekologiya, mədəniyyət, təhsil və sosial, eləcə də hüquqi və siyasi məsələlər komitələrinin toplantılarında müzakirə ediləcək mövzular daxildir. İclasda təşkilata üzv ölkələrin nümayəndə heyətləri ilə yanaşı, beynəlxalq qurumların təmsilçiləri, ayrı-ayrı dövlətlərin parlamentlərinin müşahidəçi qrupları iştirak edib.

İclasda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin Baş Assambleyasına sədrlik Azərbaycandan Bolqarıstana keçib.

## Akar: "Türkiyə NATO-dan üz çevirməyib"

**Rusiyadan S-400 zenit-raket komplekslərinin alınması Ankaranın NATO-dan üz çevirməsi demək deyil. "Trend"in məlumatına görə, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.**

Nazir qeyd edib ki, Türkiyənin S-400-lərə ehtiyacı var və onu alacaq.

H.Akar əlavə edib ki, Türkiyə yenə də NATO-nun mühüm tərəfdaşı olmaqda davam edir.



## "BMT Dövlət Xidmətləri Forumu və Mükafatlandırma Mərasimi - 2019"un Bakıda keçirilməsi haqqında saziş təsdiqləndi

**Prezident İlham Əliyev "Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu və Mükafatlandırma Mərasimi - 2019"un 2019-cu il iyunun 24-26-da Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında məktublar mübadiləsi formasında bağlanmış Sazişin təsdiq edilməsi barədə fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, "Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu və Mükafatlandırma Mərasimi - 2019"un 2019-cu il iyunun 24-26-da Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2019-cu il iyunun 14-də və 18-də məktublar mübadiləsi formasında bağlanmış Saziş təsdiq edilsin.

Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək.

Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatına bildiriş göndərəcək.

## Deputat Əhliman Əmiraslanov iyunun 28-dək Koreyada səfərdə olacaq

*Azərbaycan və Koreya arasında səhiyyə sahəsində əməkdaşlığın artırılması məsələləri müzakirə ediləcək*

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Koreya Milli Assambleyasının Səhiyyə və Rifah Komitəsinin dəvətilə iyunun 22-də Koreyanın paytaxtı Seulda səfərdə olacaq.**



Məclis Aparatından "Trend"ə verilən məlumata görə, səfər müddətində millət vəkili bir sıra görüşlər keçirəcək, səhiyyə və rifah komitəsinin üzvləri ilə iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlığın daha da artırılması məsələlərini müzakirə edəcək.

Görüşdə tərəflər dostluq əlaqələrinin genişləndirilməsi və digər məsələləri də diqqət mərkəzində saxlayacaq.

Səfər iyunun 28-də başa çatacaq.

## Mahmud Rüstəmovun "UN/PUBLİSHED" adlı fərdi sərgisi keçirilir

**21 iyun - 10 iyul 2019-cu il tarixlərində Muzey Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Muzey Mərkəzinin təşkilatçılığı ilə Mahmud Rüstəmovun "UN/PUBLİSHED" adlı fərdi sərgisi keçiriləcək. Bu barədə baki-xeber.com-a Mədəniyyət Nazirliyindən məlumat daxil olub.**

Qeyd edək ki, heykəltəraş, rəngkar, qrafik, 2000-ci ildə "İlin ən yaxşı heykəltəraşı" seçilən M.Rüstəmov öz yaradıcılığının bütün istiqamətlərində maraqlı əsərlər yaradıb. Reallıq və irreallığın, maddi və zərif intellektuallığın, ilahi və demonik başlanğıcın paradoksal və məchul sintezi onun yaradıcılığının əsas məzmununu təşkil edir. Ekspozisiyada heykəltəraşın "Qızılı xəttin sirri" və "Başlanğıc öncəsi yuxu" adlı işləri özünəməxsus görüntüsü ilə diqqəti cəlb edir. "Dördbucaqlı tısbağanın mahnısı" əsərini heykəltəraş Türkiyədə yerləşən vadinin müasir interpritasiyası adlandırır.

*İradə SARIYEVA*

# Sosial himayə paketləri ilə eyni vaxtda struktur və kadr islahatlarına dair daha bir nümunə - təcrübə özünü necə doğruldur...

**Prezident İlham Əliyevin sərəncamı ilə daxili işlər naziri Ramil Usubov Prezident yanında Təhlükəsizlik Şurasının katibi, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev isə vəzifəsindən azad edilərək müdafiə sənayesi naziri təyin edildi. Prezidentin başqa sərəncamı ilə daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazov daxili işlər naziri, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyev isə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edildi. Aparılan bu kadr islahatı maraqlı dönəmə təsadüf edir.**



Yeni təyinatlardan cəmi bir gün əvvəl ölkə başçısı sosial inqilab kimi qəbul edilən 17 sərəncama imza atdı. Beləliklə, Prezident sosial islahatlarla yanaşı, kadr və struktur islahatlarını da genişləndirir. Bəllidir ki, bunlar bir-birilə əlaqəlidir. Yeni prezident seçkisindən sonra bu proses daha dinamik hal almağa başlayıb. Məhz həmin seçkidən sonra bir qrup gənc kadra yüksək vəzifələr etibar edildi. Elə həmin dönəmdə bir sıra dövlət qurumlarının ləğvi və ya birləşdirilməsi prosesi həyata keçirildi. Bu prosesin davam etdirilməsi zəruridir. Maaş və pensiyaların artımı və bu prosesin gələcəkdə də davam etdirilməsi hakimiyyətin bütün resurslarının səfərbərliyini diqtə edir. Çünki yalnız neftin qiymətləri üzərində iqtisadi problemləri həll etmək çətindir, çevik və müasir çağırışlara cavab verən idarəçilik sistemi qurulmalıdır. Bu mənada bir sıra dövlət strukturlarında yeni yanaşmaların tətbiqinə ehtiyac var. Bu baxımdan, paralel şəkildə aparılan və müxtəlif sahələri əhatə edən islahatlar müsbət nəticə verirmi? Birmənalı şəkildə buna "hə" cavabı vermək olar. Çünki ilin əvvəlindən start götürən struktur dəyişikliklərində əsas məqsəd idarəçilikdə illərdən bəri davam edən sosial-iqtisadi inkişaf proseslərinin ortaya çıxardığı boşluqları daha optimal variantla doldurmaq olub. Dinamik inkişafı təmin etmək üçün iqtisadi və sosial sferada əsaslı müsbət dəyişikliklərin həyata keçirilməsi, dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, səmərəliliyin yüksəldilməsi, çevik və məqsədyönlü fəaliyyət göstərən yeni idarəetmə strukturunun formalaşdırılması artıq zərurətə çevrilib.

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev də bu məsələyə toxunaraq struktur islahatının gözlənildiyini vurğulamışdı. Dövlət başçısının yanvarın 14-də imzaladığı fərmanlar isə artıq struktur islahatları istiqamətində mühüm qərarların verildiyini özündə əks etdirir.

Prezident İlham Əliyevin rəhbərliyi altında son 16 ildə aparılan kompleks islahatlar Azərbaycana "dünyada ən islahatçı ölkə" imici qazandırmaqla yanaşı, həm də dövlətimizin davamlı və tarazlaşdırılmış iqtisadi inkişafını təmin edib. Dövlət başçısı tərəfindən aparılan struktur islahatlarının əsas məqsədi isə idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Struktur islahatları ilə yanaşı aparılan kadr islahatları da öz bəhrəsini verir və əhali tərəfindən müsbət qarşılanır. Sosial şəbəkələrdə aparılan müzakirələrdən aydın görünür ki, cəmiyyətin böyük hissəsi ölkə başçısının apardığı kadr siyasəti və islahatından məmnunluq ifadə edir.

Dövr, zaman dəyişir. Heç şübhəsiz, idarəçiliyə münasibət də dəyişir. İdarəçilik nəinki çevik və institusional, eyni zamanda, gələcək üçün hesablanmış da olmalıdır. Cəmiyyətdə həm də bu islahatların bundan sonra da aparılması ilə bağlı sifarişin olduğu hiss edilir. Hakimiyyətin də davranışlarından hiss edilir ki, bütün sahələrdəki islahatların davamı gələcək. Bütün bunların əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı imzalanan inqilabi sərəncamların fonunda baş verməsi cəmiyyətə əlavə müsbət stimul vermiş olur.

*Məhəmmədəli*
**QƏRİBLİ**

# MQ həmsədrləri ənənəvi ziyanlı yanaşmalarını yenə təkrarladı - atəşkəs pozuntusuna görə tərəflərin məsuliyyəti eyniləşdirildi...

**ATƏT-in Minsk Qrupunun həmsədrləri iyunun 20-də Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyanla keçirdikləri görüşlə bağlı birgə bəyanat yayıblar. Bəyanatda həmsədrlərin nazirlərlə əvvəlcə ayrılıqda, sonra isə birgə görüşdükləri bildirilir.**



## *Akif Nağı: "Həmsədrlərin birgə bəyanatı həmin laqeydliyi təsdiq edən möhürdür"*

Qeyd olunur ki, onlar ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi səlahiyyətlərinin icraçısı Filipp Rikeri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların statusu və bölgədəki hazırkı vəziyyət barədə məlumatlandırıblar. Bildirilir ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də bu görüşlərdə iştirak edib: "Müzakirələr zamanı tərəflər bölgədə baş verən son hadisələr və nizamlanma prosesinin əsas məsələləri barədə fikir mübadiləsi aparıblar. XİN rəhbərləri vasitəçilərin regiona son səfərləri zamanı təklif etdikləri humanitar və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi ilə bağlı gözlənti və mövqelərini ifadə ediblər".

Vasitəçilər bəyanatlarında cəbhə zonasında baş verən insan itkisi ilə bağlı təəssüfləndiklərini bildirərək, tərəfləri təkidlə əsaslı danışıqlar üçün sülhə uyğun əlverişli mühitin bərpasından ötrü təcili tədbirlər görməyə çağırıblar. Son vaxtlar cəbhədə insan itkisi ilə nəticələnən insidentlərdən təəssüfləndiklərini bildirən həmsədrlər, tərəfləri substantiv danışıqlara yardım edən sülh mühitinin bərpası üçün təxirəsalınmaz tədbirlər görmək, həmçinin, atəşkəs rejiminə ciddi şəkildə riayət etməyə bağlılıqlarını təsdiq etmək və təmas xətti, beynəlxalq sərhədlər boyunca snayperlərdən istifadə və mühəndis qurğularının quraşdırılması kimi əməllərdən çəkinməyə çağırıblar.

Göründüyü kimi, həmsədrlərin son bəyanatı da əvvəlkilərdən heç nəyi ilə fərqlənmir. Çünki konkretlik yoxdur. Həmsədrlər yenə ümumi sözlərdən istifadə etməklə problemin məsuliyyətini hər iki tərəfin üzərinə qoymağa çağırırlar. Bəyanatda son vaxtlar təmas xəttində baş verən insan tələfatlarından, atəşkəsin mütəmadi pozulmasından narahatlıq ifadə olunsa da, buna səbəb olan amil barədə konkret nəsə danışılmır. Dəqiq olaraq atəşkəsin Ermənistan tərəfindən pozulduğu, ilk olaraq ordumuzun mayorunun onlar tərəfindən açılan atəşlə öldürüldüyü məlum olsa da, bu barədə bəyanatda nəsə qeyd edilmir. Həmsədrlərin son bəyanatı yarımçıq sayıla bilərmi?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmsədrlərin təmsil etdikləri heç bir ölkə bu problemin tezliklə həll edilməsində maraqlı deyil:** "Mən bunu yalnız indi deyil, əvvəllər də dəfələrlə bildirmişəm. Eyni zamanda, Vaşinqton görüşündən əvvəl bildirdim ki, ciddi nəticə gözləmirəm. Çünki bu, "qonşudan geri qalma" prinsipi ilə həyata keçirilən görüşlərdir. Yəni həmsədrlər təşəbbüsü əldən verməmək üçün belə fəallığı göstərirlər. Fikir verirsinizsə, Rusiya bir qədər fəallaşan kimi ABŞ-dan tərəflərə görüş təklifi gəlir. Məhz bu, "mən də varam" mövqeyinə görə münaqişənin həllində irəliləyiş nəzərə çarpmır. Həmsədrlərin birgə bəyanatı isə həmin laqeydliyi təsdiq edən möhürdür. Boş söz yığınından ibarət bir sənəddir. Əslində, özləri üçün əhəmiyyətlidir. Çünki atəşkəsin pozulmasından narahatlıq ifadə olunur. Diqqət edin, münaqişənin həllinin göydən asılı vəziyyətdə qalmasından deyil, məhz atəşkəsin pozulmasından. Bu da o anlama gəlir ki, həmsədrləri status-kvonun qorunub saxlanması narahat edir. Belə olmasaydı, onlar atəşkəsi pozanın konkret adını çəkərdilər. Bundan əvvəl də humanitar xarakterli təkliflər veriblər. İstəyirdilər ki, onlara əməl edilsin. Elmar Məmmədyarovun açıqlamasındakı bir məqamı da anlaya bilmədim. Deyir ki, əsgərlər kazarmalara qayıtsa, sülhə nail olmaq mümkündür. Hazırda bu mövqe bizə sərf etmir. Ermənilər də bunu istəyirlər ki, müharibə olmasın. Onlar hər an bilməlidirlər ki, torpaqları qaytarmasalar müharibə olacaq. Müdafiə naziri Zakir Həsənov dedi ki, beynəlxalq şərait müharibəyə başlamağa imkan vermir. Bəli, beynəlxalq təşkilatlara və həmsədrlərə müharibə sərf etmir. Amma bunun üçün alternativ də təklif etmirlər.

**Nə torpaqları qaytarmağa kömək edirlər, nə də müharibənin başlanmasını istəyirlər. Hesab edirəm ki, Azərbaycan hakimiyyəti düzgün qərar kimi müharibə yolunu seçməlidir. Başa düşürük ki, çətindir, təzyiqlər çoxdur, amma bunu etməyə məcburuq. Əks halda, həmsədrlərin bu cür passiv fəaliyyəti və məsuliyyətsiz bəyanatları ilə üz-üzə qalacağıq".**

*Məhəmmədəli*
**QƏRİBLİ**

**Ölkə başçısının imzaladığı sosial paketlərlə bağlı sərəncama radikal müxalif cameənin maraqlı münasibəti nəzərə çarpır. Həmin dairələr bu inqilabi yeniliklə bağlı hər hansı fikir bildirmək istəmirlər. Yəni prosesə susqun mövqe sərgiləməyi daha optimal variant kimi qəbul edirlər. Onların bu münasibəti bir müddət əvvəlki davranışları ilə də təzad yaradır.**

# Radikal düşərgə iyun sosial inqilab paketinə qarşı heç bir arqument çıxara bilmədi

***Samir Adıgözəlli:** "Deməyə söz, irad tutmağa arqument tapa bilmirlər"*



Məlumdur ki, bu islahatların birinci mərhələsi ilin əvvəlindən başlayıb. Həmin dönəmdə radikal dairələr islahatları gözdən salmaq üçün maraqlı arqumentlər irəli sürürdülər. Məsələn, deyirdilər ki, hökumət bu qədər pulu hardan alır? Sonra ciddi cəhdlə vurğulayırdılar ki, bu, pul bolluğu yaradacaq və ölkədə inflyasiya tüğyan edəcək. Bu da olmadı. Başqa bir arqumentləri isə bundan ibarət idi ki, hakimiyyət mitinqlərdəki tələblərə görə belə islahata gedib. Ancaq maraqlıdır ki, iyun islahatında büdcədən daha çox vəsait ayrılıb və yenilik daha çox sayda insana şamil olunub. Radikal cameə bunlarla bağlı heç bir ciddi arqument ortaya qoymur. Bu fərqli münasibət nə ilə əlaqəli ola bilər?

**İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, bunun bir neçə səbəbi var:** "Birincisi, onların proqnozu özünü doğrultmadı. Məsələn, deyirdilər ki, inflyasiya olacaq, olmadı. Fakt göz qabağındadır. Sonra deyirdilər ki, hakimiyyət mitinqdən qorxub bu addımı atıb. Bu versiya da özünü doğrultmadı. Çünki yanvar ayından bu günədək mitinq olmur. Onda hakimiyyət niyə islahatları davam etdirir? Bundan əlavə, belə geniş və əhatəli sərəncamları vermək üçün barmaqla sayıla bilən günlər bəs etmir. Yəni bu gün mitinq oldu, sabah analoji sərəncamlar verildi kimi iddianı irəli sürənlərin demək ki, idarəetmədən zərrə qədər də olsun xəbəri yoxdur. Bilirsiniz ki, belə məzmunlu sərəncamların hazırlanması üçün bir sıra araşdırma və dəqiqləşdirmələr aparılır ki, bu da aylar çəkir. Dünyanın bütün ölkələrində müxalifət iqtidardan maaşların, müavinətləri qaldırmağı tələb edir. Yalnız bizim radikal müxalifətdir ki, "niyə edibsiniz və pulu haradan alıbsınız?" sualını verir. Əslində, bu tələbləri müxalifət qoymalıdır və iqtidar addım atanda ona münasibətini açıqlamalıdır. Bu günlərdə imzalanan sərəncamlar onları doğrudan da şoka salıb. Deməyə söz, irad tutmağa arqument tapa bilmirlər. Çünki ölkə əhalisinin böyük bir hissəsini əhatə edən və əhalinin maddi rifah halının yaxşılaşmasına xidmət edəcək belə əhatəli sərəncamlara hansısa qulp qoymaq mümkünsüzdür. Belə yanaşma normal müxalifliyə də ziddir. Bunun adı bolşevizmdir. Hər nə varsa, qara görmək onların yalnız siyasi yanaşmasının deyil, eyni zamanda, psixikasının da korlandığına dəlalət edir.

*"Bilməlidirlər ki, həmin sərəncamlarda hansısa siyasi ayrıseçkiliyə yol verilməyib"*

Bilməlidirlər ki, həmin sərəncamlarda hansısa siyasi ayrıseçkiliyə yol verilməyib. Bütün Azərbaycan vətəndaşlarına şamil edilib. Anlasınlar ki, ondan yararlananlar arasında qohumları və üzvləri də az deyil. Yetər ki, bir qədər obyektiv olsunlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda mövcud olan demoqrafik vəziyyət kəskin şəkildə pisləşməyə başlayıb. Ümumiyyətlə, keçən əsrin 90-cı illərindən başlayaraq Ermənistanın əhali sayında azalma müşahidə edilir. Hökumət bu faktı ört-basdır etməyə cəhd göstərsə də, ölkə əhalisinin sayını süni şəkildə artırmağa çalışsa da, buna heç cür nail ola bilmir.**

# Ermənistan əhalisinin düz 1 milyon azalacağını BMT hesabatı rəsmən təsdiqlədi

***Vaqif Abışov:** "Ermənistan əhalisinin 2100-cü ildə 1 milyon nəfər azalacağı barədə BMT-nin hesabatında yer alan proqnoz bu xalqın gələcəyini sual altında qoyur"*



Hətta Ermənistanın Baş naziri Nikol Paşinyan özü də bu ölkədə demoqrafik vəziyyətin pisləşməsindən narahatlıq keçirdiyini və əhalinin sayının artırılması üçün addımlar atılmalı olduğunu çıxışlarında qeyd edib.

Ermənistan hökuməti tərəfindən beynəlxalq qurumlara ölkənin demoqrafik vəziyyəti barədə şişirdilmiş statistika təqdim edilsə də, bu qurumlar təqdim edilən rəqəmlərin həqiqəti əks etdirmədiyini üzə çıxarıblar. Dəfələrlə müxtəlif beynəlxalq qurumlar Ermənistanda demoqrafik vəziyyətin acınacaqlı olduğunu rəsmən təsdiqləyiblər.

Bu günlərdə BMT-nin yeni demoqrafik hesabatı yayılıb. Hesabatda bir sıra ölkələrin gələcək demoqrafik vəziyyəti haqqında məlumat yer alıb. BMT-nin demoqrafik hesabatında qeyd edilir ki, 2100-cü ildə Ermənistan əhalisi bugünkü 3 milyon nəfərdən 2 milyonadək azalacaq. Sənəddə qeyd olunur ki, Ermənistan əhalisi 2030-cu ildə 2,9 milyona çatacaq, lakin 2050-ci ildə 2,8 milyon, 2100-cü ildə isə 2,039 milyon nəfərədək azalacaq.

Sosioloq və demoqrafların bildirdiyinə görə, Ermənistan müstəqillik əldə etdikdən sonra qarşılaşdığı siyasi, iqtisadi və sosial problemlər bu ölkənin əhali sayının azalmasına səbəb olub. Bu, cəmiyyət üçün böyük təhlükəyə çevrilən demoqrafik problemin ortaya çıxmasını şərtləndirib.

Onu da qeyd edək ki, 2015-ci ilin ikinci yarısında Birləşmiş Millətlər Təşkilatının ölkələrin demoqrafik proqnozları ilə bağlı hazırladığı məruzədə 3 milyon 18 min olan Ermənistan əhalisinin 2030-cu ildə 2 milyon 992 min, 2050-ci ildə 2 milyon 729 min nəfərə qədər azalacağı və 2100-cü ildə isə 1 milyon 700 min nəfər olacağı qeyd edilirdi.

Sosioloq və tarixçilər hesab edirlər ki, Ermənistan əhalisinin azalması problemini Yaxın və Orta Şərqdə yaşanan böhran nəticəsində Suriya, Livan, İraq və digər ölkələri tərk edən ermənilərin hesabına həll etməyə cəhd göstərsə də, heç bir effekt vermir. Ekspertlər qeyd edirlər ki, bu ölkələri tərk edən ermənilərin iqtisadi vəziyyəti yaxşı olanları Ermənistana deyil, Avropa və ABŞ-a köçürlər. Ermənistana gələnlərin əksəriyyəti isə olduqca kasıb təbəqənin nümayəndələridir və əslində, Ermənistan hökuməti üçün əlavə sosial və iqtisadi problemlərə səbəb olurlar.

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə elmlər doktoru Vaqif Abışovun sözlərinə görə, BMT-nin demoqrafik hesabatında Ermənsitanla bağlı yer alan statistika və proqnozlar həqiqəti əks etdirir.** "Ermənistanın demokrafik vəziyyətinin acınacaqlı olması ilə bağlı BMT-nin demoqrafik hesabatında irəli sürülən rəqəmlər yeni deyil. O baxımdan ki, zaman-zaman müxtəlif beynəlxalq hesabatlarda Ermənistan əhalisinin gələcək sayı barədə aşağı rəqəm göstərilib. Bu ölkənin əhalisinin demoqrafik vəziyyətinin 80-90 illərdəkindən daha da acınacaqlı olmasına mövcud Ermənistan hakimiyyətinin erməni xalqının əleyhinə apardığı siyasət zəmin yaradır. Ermənilər XIX əsrin 90-cı illərindən başlayaraq həmişə saylarını artırmağa cəhd göstəriblər. Ermənistan əhalisinin 2100-cü ildə 1 milyon nəfər azalacağı barədə BMT-nin hesabatında yer alan proqnoz bu xalqın gələcəyini sual altında qoyur. Öz əhalilərinin sayı ilə bağlı həmişə dünya dövlətlərinə yalan informasiya veriblər. Bu informasiyalar da heç zaman təsdiqini tapmayıb. Ermənistanda əhalinin sayının azalması bir neçə səbəblə bağlıdır. Bu səbəblərdən biri bu ölkədə doğum səviyyəsinin aşağı olmasıdır. Bu fakt da Ermənistanda əhali artımının qarşısını alır. Hətta belə məlumatlar var ki, ermənilər həm Ermənistanda, həm də işğal etdikləri Dağlıq Qarabağda əhali sayını doğum faizini yüksəltməklə artıra bilmədikləri üçün saxta qeydiyyata almalarla, xüsusən də ölmüş adamların adlarını siyahıdan çıxarmamaqla əhalinin sayını artıq göstərirlər. Ermənistanda demoqrafik vəziyyətin acınacaqlı olmasının bir səbəbi doğum faizinin aşağı olmasıdırsa, digər səbəbi ölkə iqtisadiyyatının bərbad vəziyyətə düşməsi, iş yerlərinin olmamasıdır. Ölkədən getmək imkanı olan ermənilər Ermənistanı tərk edirlər".

*"Bugünkü vəziyyət onu deməyə əsas verir ki, Ermənistan əhalisini qarşıdakı 100 ildə böyük təhlükə gözləyir"*

V.Abışov qeyd etdi ki, hətta Ermənstandakı bu vəziyyətlə bağlı Rusiya Prezidenti Putin də maraqlı açıqlama verib. Putin Ermənistanda heç 1,5 milyon əhalinin yaşamadığını və Ermənistan əhalisinin böyük hissəsinin Rusiyada və digər xarici dövlətlərdə yaşadığını deyib. "Bu gün Ermənistan əhalisi Avropa dövlətlərinə daha çox axın edir. Ermənistanda əhali sayının azalmasının başlıca səbəblərindən biri də bu ölkədəki siyasi, iqtisadi və sosial böhranla bağlıdır. Bugünkü vəziyyət onu deməyə əsas verir ki, Ermənistan əhalisini qarşıdakı 100 ildə böyük təhlükə gözləyir. Qarşıdakı illərdə Ermənitanda yoxsulluq səviyyəsi daha da artacaq, bu amil də ölkə əhalisinin azalmasına gətirib çıxaracaq. Bundan başqa, Ermənistandan əsgərlik yaşına çatan gəncləri qaçırırlar ki, hökumət onları işğal etdikləri ərazilərə xidmətə göndərməsin" - deyə V.Abışov vurğuladı.

***İradə SARIYEVA***

# Həmsədrlərin Vaşinqtonda tərəflərə "nəticəyə yönəlik konkret təkliflərinin" kodaltı mənası...

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşınqton görüşünün nəticələri barədə açıqlama yayıb. XİN bəyan edib ki, Azərbaycan tərəfi bundan öncə Paris və Moskvada eyni formatda keçirilmiş görüşlərin davamı olaraq, bu ilin 20 iyun tarixində Vaşınqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü təşkil etdiyi üçün ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi qismində ABŞ-a minnətdarlığını ifadə edir:**

*"Çünki həmsədrlər müharibənin yenidən başlamasından daha çox narahatdırlar"*

**Məhəmməd Əsədullazadə:** *"Ola bilsin ki, sözügedən təkliflər atəşkəsin qorunması mexanizmlərinin təkmilləşdirilməsinə aiddir"*



"Hesab edirik ki, bu kimi görüşlər müsbət xarakter daşıyır və danışıqlar prosesinin irəli aparılmasına xidmət edir. 3 saatdan çox davam edən görüşdə əsas müzakirə mövzusunu nazirlərin bundan öncəki Paris və Moskva görüşləri nəticəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi məsələsi təşkil edib. Vaşınqton görüşündə həmsədrlər hər iki tərəfin diqqətinə münaqişənin sülh yolu ilə həlli prosesində irəliləyişə nail olmaq üçün konkret nəticələrə yönəlik təkliflər təqdim ediblər".

Həmçinin, o da bildirilib ki, yaxın aylarda eyni formatda növbəti görüşün keçirilməsinə dair ümumi razılıq əldə olunub.

Burada maraq doğuran məqamlardan biri həmsədrlərin tərəflərə münaqişənin sülh yolu ilə həlli prosesində irəliləyişə nail olmaq üçün konkret nəticələrə yönəlik təkliflər təqdim etməsidir.

Maraqlıdır, burada söhbət hansı təkliflərdən gedə bilər? Ümumən, ekspertlər bunu necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə, ümumən, buna bir neçə aspektdən yanaşdı: "Belə görünür ki, həmsədrlər danışıqlar prosesində əlavə sənədlər təqdim ediblər. Konkret nəticələrə yönəlik təkliflərin mahiyyətinin nədən ibarət olduğu məlum deyil. Ancaq müəyyən ehtimallar irəli sürmək olar.

Ola bilsin ki, sözügedən təkliflər atəşkəsin qorunması mexanizmlərinin təkmilləşdirilməsinə aiddir. Çünki həmsədrlər müharibənin yenidən başlamasından daha çox narahatdırlar. Onların əsas məqsədi odur ki, eskalasiya yaranmasın. Yəni müharibə başlamasın. Başqa bir tərəfdən, onu da nəzərə almalıyıq ki, Qarabağ konflikti Rusiyanın regionda geosiyasi maraqlarının və təsirinin qorunması üçün əsas vasitəsidir. Təbii ki, burada erməni millətçiliyi və Ermənistanın işğal faktoru da mühüm rol oynayır. Moskva məhz bu münaqişə üzərindən Ermənistanı forpost olaraq idarə edir, həmçinin, ölkəmizə qarşı müəyyən təzyiq rıçaqlarını əlində saxlayır. Bu, Moskvanın ölkəmizə qarşı Ermənistanın vəkalət müharibəsidir. Məqsəd ölkəmizi öz orbitinə çəkmək və forpost olaraq idarə etməkdir.

Azərbaycan öz müstəqilliyini və suverenliyini heç bir ölkəyə güzəşt etməz və işğal faktorunu mütləq aradan qaldıracaq. Biz danışıqları Ermənistanla aparırıq və demək olar ki, heç bir irəliləyiş əldə etmək mümkün olmayıb. Bütün ədalətli həll formalarının Rusiya qarşısını alır. Rusiya faktoru olmasa, Ermənistan ərazilərdən ilkin şərt olmadan çıxmağa məhkum olar.

Rəsmi Bakı yalnız Qərblə tərəfdaşlığı inkişaf etdirməlidir. Rusiya qarşısında manevr imkanlarına sahib olmalıdır.

**Ordumuzu gücləndirməliyik. Rusiya Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə yaxın perspektivdə imkan verməyəcək. Ermənistan Rusiyanın orbitindən tam çıxarsa, danışıqlar İrəvanla mümkün ola bilər. O zaman konfliktin həll edilməsi mümkündür".**

***Vidadi ORDAHALLI***

# Rus deputat Gürcüstanı qarışdırdı, Prezident Zurabişvilinin dəstəklədiyi etirazçılar spikeri istefaya göndərdi

**Gürcüstan müxalifəti ilə təhlükəsizlik qüvvələri arasında iyunun 20-də parlament qarşısında toqquşmalar baş verib. Baki-xeber.com xəbər verir ki, Rusiyadan gəlmiş deputatın Gürcüstan parlamentinin kürsüsündə rus dilində çıxış etməsi ortalığı qarışdırıb.**



Tiflisdə açılışı olan 26-cı Pravoslav Parlamentlərarası Baş Assambleyasının ikinci gününə Rusiya Kommunist Partiyasının üzvü və Rusiya Dövlət Dumasının deputatı Sergey Qavrilov başçılıq edib. Rus deputat S.Qavrilovun parlament sədrinin kreslosunda oturması müxaliflərin sərt etirazına səbəb olub. Parlamentdəki müxalif deputatlar tədbiri tərk edib. Parlamentdə yaşanan uzun gərginlikdən sonra tədbir təxirə salınıb.

Ancaq bu dəfə xalq küçələrə çıxıb və Rusiyadan gələn heyətin dərhal ölkədən çıxarılmasını tələb edib. Onlar parlament sədri İrakli Kobaxidze, daxili işlər naziri və başqa rəsmi şəxslərin istefasını tələb ediblər.

Parlament binasına daxil olmaq istəyən etirazçılarla polis arasında qarşıdurma yaranıb. Polis etirazçılara qarşı qaz və plastik güllələrdən istifadə edib, onların parlament binasına girişinin qarşısını alıb.

Gürcüstanın Səhiyyə nazirinin müavini Zaza Boxua bildirib ki, parlamentin binası önündə baş verən qarşıdurma zamanı yaralıların sayı 240-a çatıb. Onun sözlərinə görə, yaralılardan 80-i polis əməkdaşıdır. O qeyd edib ki, hazırda 102 pasiyent Tiflis xəstəxanalarındadır.

Gürcüstanın Daxili İşlər Nazirliyi isə Tiflisdə parlament qarşısında etiraz aksiyalarını kütləvi şəkildə dövlət çevrilişi cəhdi kimi dəyərləndirib.

Gürcüstan Baş naziri Mamuka Baxtadze bəyan edib ki, Tiflisin mərkəzində kütləvi qarşıdurmanın təşkilatçıları, bu insidentlə bağlı buraxılan səhvlərə görə həm müxalifət, həm də hakim komandanın üzvləri məsuliyyətə cəlb olunacaq.

Bu arada, Gürcüstan Prezidenti Salome Zurabişvili Belarus səfərini yarımçıq qoyaraq təcili Tiflisə qayıdıb. O, Minskə bir gün öncə gedib. Onun Belarus prezidenti Aleksandr Lukaşenko və Baş nazir Sergey Rumasla görüşü nəzərdə tutulurdu. Gürcü lideri, həmçinin, II Avropa Oyunlarının açılış mərasiminə də qatılmalı idi. Prezident Zurabişvilinin ölkə spikerini hədəf alan etirazçıları dəstəklədiyi bildirilir.

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze isə nümayəndə heyəti ilə birgə Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclasını tərk edərək təcili geri qayıdıb. Onun ölkəyə qayıtdıqdan sonra istefa verdiyi bildirilir.

"Gürcü Arzusu" partiyasının parlamentdəki fraksiyasının lideri Mamuka Mdinaradze bildirib ki, parlamentin yeni sədri hakim partiyanın üzvü Arçil Talakvadze olacaq. "Mən deyə bilərəm ki, digər namizəd heç nəzərdən belə keçirilmir və parlament çoxluğu Arçil Talakvadzeni dəstəkləyəcək", - Mdinaradze deyib.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi təmsilçisi Mariya Zaxarova Tiflisdə baş verənləri bu ölkənin özünə zərər vuran dəhşətli təxribat adlandırıb. Ou barədə öz "Facebook" səhifəsində yazıb.

"Radikalların təxribatı, partiyalar arasında hakimiyyət uğrunda mübarizə... Siyasət... Demokratiya. Və mən ironiya etmirəm - bu, müasir dünyanın reallığıdır", - deyə Zaxarova öz "Facebook" səhifəsində qeyd edib.

O vurğulayıb ki, Rusiya Dövlət Dumasının deputatları, Pravoslav Parlament Assambleyasının prezidenti Sergey Qavrilov Gürcüstana "dəvət və dinc məqsədlə... pravoslav forumun xətti ilə" gəlib və o "heç vaxt Gürcüstan əleyhinə fəaliyyətdə olmayıb".

"Bəli, biz ötən gün turizm mövsümünün qızğın vaxtında törədilən dəhşətli təxribatı gördük. Kim təxribatçılar tərəfindən qızışdırılan kütlənin otellərə hücum etməyəcəyinə zəmanət verə bilər? Kim? Gürcüstanda hazırda buna kim zəmanət verə bilər? KİV-lər də Rusiya XİN-ə xeyli sayda suallar göndərir: Gürcüstana səfər edən rusiyalılara məsləhətləriniz nədir? Şəxsən mənim üçün nəticə kədərlidir: ötəngünkü iğtişaşlar ən çox Gürcüstanın özünə zərər vurdu".

**Diplomatın fikrincə, Gürcüstan "Rusiyaya qarşı sanksiya müharibəsini başladan və 5 ildir özü bundan əziyyət çəkən" Avropanın təcrübəsini təkrarladı.**

**Artıq xeyli müddətdir ki, ölkə gündəmində duran başlıca məqamlardan biri nağdsız ödənişlərin həcminin genişləndirilməsi ilə bağlıdır. İndiyə qədər hökumətin bu istiqamətdə atdığı addımlar, əslində müəyyən nəticələr verir. Amma nağdsız ödənişlərin miqyası hələ də istənilən həcmdə deyil və bunun əsas səbəbi qanunvericilikdə olan bir sıra boşluqlardır.**

# Nağdsız ödənişlərin qəbulundan imtina edən sahibkarlar məsuliyyətə cəlb olunacaq



Bu barədə danışmazdan öncə xatırladaq ki, elə bu günlərdə vergilər naziri Mikayıl Cabbarov qeyd olunan məqamlarla bağlı maraqlı bir açıqlama vermişdi. Nazir bildirmişdi ki, nağd pul kütləsinin ümumi pul kütləsində xüsusi çəkisi 2017-ci ilin dekabr ayı ilə müqayisədə 2018-ci ilin dekabrında 60,1%-dən 51,9%-ə qədər azalıb: "Düşünürəm ki, bu rəqəm dinamikanın hansı istiqamətə yönəldiyini aydın şəkildə göstərir. Eyni zamanda, 2016-ci illə müqayisədə pos-terminalların sayı 16%-dək azalıb. 2016-ci ildə 80 301 ədəd idisə, iyunun 1-nə 67 032 pos-terminal qeydiyyatdadır. Eyni zamanda, hazırda ölkədə 6 milyon 721 min ədəd ödəniş kartı mövcuddur". Sadalanan rəqəmlər nağdsız ödənişlərin miqyasının artdığını göstərsə də, lazımi infrasturukturun azlığı fonunda problem də var. Belə görünür ki, hələ də bəzi sahibkarlar nağdsız ödənişlərdən qaçır. Elə bu səbəbdən Vergilər Nazirliyi qanunvericilik səviyyəsində bu sahədə problemin aradan qaldırılmasının zərurətini gündəmə gətirir. Mikayıl Cabbarov özü də bu xüsusda maraqlı açıqlamalar verib: "Mövcud qanunvericilik ticarət və ictimai iaşə obyektlərində pos-terminallar vasitəsilə ödənişlərdən imtina faktına görə məsuliyyət tədbirləri nəzərdə tutmur". Onun sözlərinə görə, nağdsız ödənişlərin qəbulundan imtinaya görə Azərbaycanda məsuliyyət müəyyən edilməyib: "Bu isə bəzi vergi ödəyicilərinə, sizin tərəfinizdən haqlı qeyd olunduğu kimi, müxtəlif bəhanələr gətirməklə pos-terminallardan istifadədən yayınmağa şərait yaradır. Vergilər Nazirliyi bu məsələ ilə bağlı qanunvericilik təşəbbüsü ilə çıxış edib. Lakin qurumlararası razılaşma prosedurları zamanı bu təşəbbüs dəstəklənməyib. Yenidən bu mövzu gündəmə gələrsə - Milli Məclis qanunvericilik təşəbbüsünə malik olan orqandır və təbii olaraq, biz həmin qanun layihəsini yenidən təqdim etməyə hazırıq".

Ekspertlər də hesab edir ki, nağdsız ödənişlərin qəbulundan imtinaya görə məsuliyyət müəyyən edilməsi artıq zərurətə çevrilir. Çünki real nəticələr göstərir ki, bu istiqamətdə yalnız stimullaşdırıcı addımlar istənilən nəticəni vermir. Elə iqtisadçı-ekspert Vüqar Bayramov da vurğulayır ki, Azərbaycanda pos-terminalların məcburi olması ilə yanaşı, bunlardan istifadə edilməməsinə görə də ayrıca prosedurlar müəyyənləşməlidir. Ekspert bildirib ki, pos-terminaldan istifadə vacibdir: "Ölkəyə gələn turistlərin çoxu pos-terminaldan istifadə etməkdə maraqlıdır. Xüsusən turizmin inkişafı prioritet olduğuna görə bu sahənin inkişafını dəstəkləyən pos-terminallardan daha geniş istifadə edilməsinə ehtiyac var. Aparılan monitorinqlər göstərir ki, ölkədə bir sıra hallarda həm vətəndaşlar, həm də turistlər plastik kartlardan istifadədə çətinlik çəkir. Turizmin inkişafı baxımından pos-terminalların istifadəsinin genişləndirilməsinə ehtiyac var". Onun sözlərinə görə, digər tərəfdən, pos-terminallardan istifadə nağdsız hesablaşmaların genişləndirilməsi, şəffaflığın artırılması, vergidən yayınmanın qarşısının alınması baxımından vacibdir: "Eyni zamanda, vətəndaş bir istehlakçı olaraq pos-terminal olan yerlərdə plastik kartından istifadə etmək imkanına malik olmalıdır. Amma təəssüf ki, nəinki kiçik və orta xidmət və ictimai iaşə müəssisələrində, bəzi hallarda hətta iri obyektlərdə belə pos-terminallardan istifadə olunması problemlidir".

İqtisadçı deyib ki, vətəndaş plastik kartı təqdim edir, amma çox təəssüf ki, qarşı tərəf bununla əməliyyat aparmaqda maraqlı olmur: "Ona görə də qanunvericiliyə dəyişiklik edilməsini təklif edirik. Qanunvericiliyə dəyişiklik edilməsi və qanunvericilikdə pos-terminaldan istifadənin məcburi olmasına ehtiyac var. Baxmayaraq ki, qanunvericilikdə pos-terminaldan istifadə məcburidir. Amma pos-terminaldan istifadə edilmədiyi halda praktiki olaraq hansısa cərimə yoxdur. Ona görə də qanunvericiliyin təkmilləşdirilməsi çox vacibdir. Çünki istehlak hüquqları baxımından pos-terminaldan istifadə edilməsinə ehtiyac var. pos-terminalların məcburi olması ilə yanaşı, bunlardan istifadə edilməməsinə görə də ayrıca prosedurlar müəyyənləşməlidir".

Onun fikrincə, bu sahədə monitorinqlər davam etdirilməlidir: "Çünki pos-terminalın quraşdırılması onun istifadə edilməsi anlamına gəlmir. Yalnız pos-terminalın quraşdırılmasına deyil, bundan istifadə olunmasına da nəzarətin gücləndirilməsinə ehtiyac var. Praktiki olaraq quraşdırılmış pos-terminallardan istifadə ilə bağlı nəzarətin gücləndirilməsi çox vacibdir. Müvafiq qurumlar və xüsusən də Vergilər Nazirliyi bu istiqamətdə monitorinqləri gücləndirməklə, eləcə də qanunvericiliyi təkmilləşdirməklə problemin həlli ilə bağlı addımlar atıla bilər".

Yuxarıda qeyd olunduğu kimi, ölkədə nağdsız əməliyyatların həcminin artırılması üçün artıq müxtəlif addımlar atılır, o cümlədən stimullaşdırıcı tədbirlər görülür. Məsələn, cari ilin əvvəlindən Vergi Məcəlləsində qüvvəyə minmiş dəyişikliyə əsasən, pos-terminalla həyata keçirilən ödənişlərə görə sahibkarlara müəyyən güzəştlər verilib. Bu dəyişikliyə əsasən, pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkar tərəfindən büdcəyə ödənilməli olan gəlir vergisinin məbləği 3 il müddətinə 25 faizi həcmində azaldılır. Amma bunun üçün sahibkarın satışı pos-terminal vasiətsilə həyata keçirməsi mühüm şərtdir. Bu güzəştin alınması hüququ müəyyən edilərkən, vergi orqanında uçotda olan şəxslər tərəfindən pos-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır. Eləcə də, alıcı alınmış mallara görə ödənişi nağdsız qaydada edirsə, əlavə dəyər vergisindən (ƏDV) onun hesabına 15 faiz həcmində vəsait qaytarılır. Bütün bunlarda əsas məqsəd pos-terminaldan istifadəni stimullaşdırmaqla nağdsız dövriyyənin genişləndirilməsinə nail olmaqdır. Amma görünən budur ki, məcburi mexanizmlər tətbiq edilməyəcəyi halda pos-terminallardan istifadə həcmi lazımi səviyyədə olmayacaq.

***Tahir TAĞIYEV***

# Dünya ucuz dollar dövrünə daxil olur, Rusiya və Çin tədbirlərə başlayıb, bəs Azərbaycan...

**ABŞ dolları ilə bağlı qlobal miqyasda yenə də maraqlı proseslər cərəyan etməkdədir. Belə görünür ki, dolların bundan sonra daha çox ucuzlaşma dövrü başlanacaq və bu, müəyyən məqamlar baxımından digər dövlətlərə, o cümlədən Azərbaycana da təsirini göstərəcək.**

Qeyd edək ki, ABŞ Federal Ehtiyat Sistemi son iclasında uçot dərəcəsini 2,25-2,5% səviyyəsində saxlayıb. Dolların məzənnəsinin getdikcə bahalaşmasından narahat olan Ağ Ev isə onun bir qədər ucuz qalmasına çalışır. Bu da iyulda baş tutacaq növbəti iclasda faiz dərəcəsinin endirilməsinə zəmin yaradır. Federal Ehtiyat Sistemi faiz dərəcəsinin enməsinə getdiyi təqdirdə dolların ucuzlaşmasının daha sürətli xarakter alması gözlənir.

Artıq Federal Ehtiyat Sisteminin uçot dərəcəsini sabit saxlaması belə dolların məzənnəsini aşağı salmaqdadır. İndi dolların başqa valyutalara qarşı məzənnəsində zəifləmə nəzərə çarpır. Azərbaycanda bu fonda tənzimlənən məzənnə rejimi olduğu üçün bu qərarın, birbaşa da olmasa, dolayı yolla ölkəmizə təsirləri müşahidə olunacaq. Əsas təsirlər isə beynəlxalq qurumlardan götürülən kreditlərin faizlərində özünü göstərəcək. Bundan başqa, ucuz dollar amili neftin də bahalaşmasına səbəb olmaqdadır. Dünya mediasında səslənən fikirlərdən belə bəlli olur ki, əslində qarşıdakı dövr ərzində dolları heç də yaxşı aqibət gözləmir. Çünki ondan imtina etməyə çalışan ölkələrin sayı artır. Bu xüsusda "RİA Novosti" saytı yazır: "2018-ci il üçün olan məlumatlara görə, müxtəlif ölkələrin valyuta ehtiyatlarında dolların payı 61,7 faiz təşkil edib. Bu son 20 il üçün ən aşağı göstəricidir. Avropa Mərkəzi Bankı iyun ayı üçün hesabatında qeyd edir ki, dollar hələ də dünyanın ehtiyat valyutası olaraq qalsa da, onun hökmranlığı əhəmiyyətli dərəcədə sarsılıb.

2008-ci ilin qlobal maliyyə böhranı zamanı dünya mərkəzi banklarının ehtiyatlarında maksimum səviyyədə ABŞ dolları var idi, lakin həmin dövrdən bəri dolların ehtiyatlarda payı 7 faiz bəndi azalıb. 2018-ci ildə ABŞ dolları və istiqrazlarını inkişaf etməkdə olan ölkələr xüsusilə aktiv şəkildə satırdılar. Argentina, Çin, Honkonq , Hindistan, İndoneziya, Tailand və Türkiyə dəyəri təxminən 200 milyard dollar olan ABŞ xəzinə istiqrazlarını satıb. Onların bəziləri bunu öz valyutalarını sabitləşdirmək üçün təcili olaraq nağd dollara ehtiyac olduğundan edir. Digərləri isə Vaşinqtonla olan münaqişələr səbəbindən ABŞ aktivlərindən imtina edir. Türkiyənin aparıcı "Sabah" qəzeti yazır:"Bir çox ölkələrin məqsədi ABŞ-ın sanksiya təhdidlərinə cavab olaraq dollardan asılılığı azaltmaqdır. Türkiyədə ABŞ xəzinə istiqrazları portfeli rekord dərəcədə kiçilib - demək olar ki, hər şey satılıb". Lakin ABŞ-ın ənənəvi müttəfiqləri də daxil olmaqla, inkişaf etmiş ölkələr dollar aktivlərindən imtina edir. Bu yeni bir tendensiyadır. Birləşmiş Krallıq aprel ayında ABŞ dövlət istiqrazlarını 16,3 milyard dollar səviyyəsində azaldıb.

Ümumiyyətlə, ABŞ dövlət borcunun ən böyük xarici sahibi olan (1,1 trilyon dollar) Çin bu göstəriciyə görə liderdir. Ticarət müharibəsi səbəbindən Pekin bu il ərzində 60 milyard dollar dəyərində xəzinə istiqrazlarından imtina edib. Apreldə isə Çin əlavə olaraq 20 milyard dollar dəyərində ABŞ istiqrazlarını sataraq bu ehtiyatları son iki ildə ən aşağı həddə endirib. ABŞ-ın ikinci ən böyük kreditoru olan Yaponiya bu göstəricidə geridə qalmır: apreldə Tokio xəzinə istiqrazlarını 11,07 milyard dollar həcmində azaldıb.

Çinin Amerikanın əsas kreditorları siyahısından çıxacağı qorxusu da böyüyür. Lakin amerikalı analitiklər bu ssenarinin mümkün olmadığını iddia edir. Bu halda istiqrazların qaçılmaz olaraq kəskin devalvasiyası amerikalılardan daha çox çinlilərə zərər vuracaq. Lakin "Bloomberg" qeyd edir ki, Pekin yuanın məzənnəsinin saxlanması üçün istənilən vaxt bu aktivlərə yatırımlarını əhəmiyyətli dərəcədə azalda bilər. "Columbia Threadneedle Investments" şirkətinin analitiki Cin Tanuzzo qeyd edir: "Çin ABŞ xəzinə istiqrazlarını satmağa başlasa belə, bu, yeni rüsumlardan daha çox, onun öz valyutasının tənzimlənməsi ilə bağlı olacaq. Kapital axını artanda isə Pekin yuanı qorumalı və xəzinə istiqrazlarını satmalı olacaq".

Amerika aktivlərini ən fəal şəkildə satanlardan biri də Rusiyadır. 2010-cu ildə Rusiya Bankının ABŞ dövlət istiqrazlarına yatırımları 176 milyard dolları aşırdı. Lakin 2014-cü ildən etibarən, Vaşinqtonun sanksiya təzyiqi artdıqca Mərkəzi Bank xəzinə istiqrazların portfelini kiçiltməyə başladı və nəticədə 2019-cu ilin əvvəlində bu qiymətli kağızların balansda həcmi 14 milyard dollara düşüb. ABŞ maliyyə nazirliyinin məlumatına görə, Rusiya apreldə 1,6 milyard dollar dəyərində ABŞ istiqrazlarından imtina edib. Hazırda Rusiya Mərkəzi Bankında olan xəzinə istiqrazlarının həcmi 12,13 milyard dollardır. Bu, 2007-ci ildən bəri ən aşağı göstəricidir. Dollar aktivlərinin satışından isə əldə edilən gəlirlərin demək olar ki, hamısı avro və yuan aktivlərinə xərclənib. Avropa Mərkəzi Bankı son hesabatında bildirib ki, Rusiyanın valyuta ehtiyatlarında avronun payı artaraq 39 faiz olub, ABŞ dollarının payı isə 27 faizə düşüb. Yuanın payı isə 17 faizə qalxıb. Eyni addımları digər ölkələrin mərkəzi bankları da atır. Bu yaxınlarda Beynəlxalq Valyuta Fondunun bildirdiyinə görə, dolların əhəmiyyətinin tədricən azalması ilə dünya mərkəzi banklarının ehtiyatlarında avro, yen və yuanın payı artmaqdadır: "Bütün dünya üzrə banklar ehtiyatlarını diversfikasiya etməyə və onları dollarlardan ayırmağa davam edir".

Dollardan imtina etməklə yanaşı, dövlətlər qızıl ehtiyatlarını da artırır. Ümumdünya Qızıl Şurasının dəyərləndirmələrinə əsasən, ötən il ərzində mərkəzi bankların balansında bu qiymətli metalın həcmi 651 ton artaraq 1971-ci ildə ABŞ-ın qızıl standartından imtina etdiyi vaxtdan bəri ən yüksək səviyyəyə çatıb. Bu qızılın, demək olar ki, yarısı Rusiya Bankı tərəfindən alınıb. "Bloomberg" qeyd edir: "Rusiya qızıl və valyuta ehtiyatlarının strukturunu diversifikasiya edərək və ABŞ aktivlərinin payını azaldaraq bu işdə sürətli şəkildə nəticələr əldə edə bilib".




Hazırda Rusiya Mərkəzi Bankının 2112 ton qızıl ehtiyatı 87 milyard dollar dəyərində qiymətləndirilir. Bu, bütün postsovet dövrü üçün bir rekorddur. Ötən on il ərzində ölkənin valyuta ehtiyatlarında qızılın payı 3,5 faizdən 18,6 faizədək artıb. İsveçrənin "Neue Zürcher Zeitung" qəzeti bildirib: "Qızıl çox az təbii inflyasiyaya məruz qalan ən güclü valyuta və dollarda baş verən kəskin dəyişmələrə qarşı yaxşı sığortadır. O, yüksək likvidliyi olan resursdur. Böyük qızıl ehtiyatları isə yatırımçıların rubla olan güvənini artırır". Bu dəyərli metalın ikinci ən böyük alıcısı Çindir. Onun 1853 ton qızıl ehtiyatlarının dəyəri 76 milyard dollardır.

Keçən ilin sonlarında Pekin iki ildən çox davam etmiş fasilədən sonra qızılın alınmasını kəskin şəkildə artırmışdı. Bu isə qızılın qiymətinin bir unsiyaya görə 1300 dollar səviyyəsinə qalxmasına səbəb olmuşdu.

Analitiklər izah edirlər ki, qızıl həm də ABŞ-da baş verə biləcək defolta qarşı sığortadır. Çin və Rusiya çox yaxşı başa düşür ki, Birləşmiş Ştatlar üçün borc öhdəliklərini ödəmək elə də asan olmayacaq və nəticədə xəzinə istiqrazlarının alınması mənasızdır. Hazırda ABŞ-ın istiqraz bazarının süqutu ehtimalı var. Bu səbəbdən də Moskva və Pekin qızıla yatırım etməyi üstün tutur". Bütün bu qeyd edilənlər isə dollar üzərində təhlükənin artdığını göstərir.

***Nahid SALAYEV***

# Ermənistan və Gürcüstanda anti-Rusiya çıxışlar hərəkata çevrilir - Azərbaycanın isə stabil müttəfiq imici möhkəmlənir

***Nəzakət Məmmədova:** "Rusiya bunu ədalətli şəkildə qiymətləndirərsə..."*

**Xəbər verildiyi kimi, pravoslav parlamentlərarası assambleyasının Tiflisdə keçirilən iclası zamanı Rusiya nümayəndə heyətinin rəhbəri, kommunistlər fraksiyasından Sergey Qavrilov Gürcüstan parlamenti spikerinin kürsüsündə oturub. Bu fakt müxalifəti hiddətləndirib və onlar dərhal tərəfdarlarını küçələrə çağırıblar. İclas yarımçıq qalıb, müxalifət tərəfdarları rusiyalı deputatların qaldıqları otelin qarşısında da aksiya keçiriblər, onların Gürcüstandan "rədd olub getmələrini" tələb ediblər.**

Spiker İrakli Kobaxidze yaranmış vəziyyətlə bağlı Bakıya səfərini yarımçıq qoyub. Minlərlə müxalifət tərəfdarı parlamentə hücum edib, onlardan bir qrupu binaya daxil olub. Xüsusi təyinatlılarla toqquşmalarda onlarla adam xəsarət alıb, xüsusi vasitələr, rezin güllələr tətbiq edilib.

Parlamentin qarşısında aksiya dağıdıldıqdan sonra müxalifətçilər hakim "Gürcü arzusu-Demokratik Gürcüstan" partiyasının ofisinə basqın edib dağıdıblar.

Ölkədə yaranmış vəziyyətlə bağlı Prezident Salome Zurabişvili də Belarusa səfərini yarımçıq qoyub. O, Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Minskə getmişdi. Xəbər verilir ki, Zurabişvili iyunun 21-də səhər saatlarında Minskdən Tiflisə dönüb. Zurabişvilinin sözlərinə görə, daxili qarşıdurmanı qızışdıran hər kəs Rusiyanın əlinə oynayır və Kremlin planlarını icra edir: "Rusiya bizim düşmənimizdir və işğalçıdır".

Eks-prezident, hazırda Ukraynada olan Mixeil Saakaşvili isə etirazları dəstəkləyib, polisi xalqın tərəfinə keçməyə çağırıb.

Göründüyü kimi, Gürcüstanda sırf anti-Rusiya ovqatı hakimdir. Bu tendensiya Cənubi Qafqaz respublikaları arasında yalnız Gürcüstan üçün xarakterik deyil. Eyni zamanda, Ermənistanda da cəmiyyətdə Rusiyaya qarşı aqressiya müşahidə edilir. Xüsusilə də Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra bu yöndə olan fikirlər açıq ifadə olunmağa başlayıb. Ermənistanda mütəmadi olaraq anti-Rusiya aksiyaları keçirilir. Bu coğrafiyada olan ölkələrin sırasında yalnız Azərbaycandır ki, Rusiya ilə səmimi əməkdaşlıq, hətta müttəfiqlik edir. Etiraf etməliyik ki, bizdə Rusiyaya qarşı bu cür antipatiya müşahidə olunmur. Əksinə, rusdilli məktəblərdə oxumağa tələbat günü-gündən artır, həmin ölkə ilə münasibətlərimizdə inkişaf dinamikası nəzərə çarpır. Bəs Rusiya necə, Azərbaycanın hərəkətlərinə adekvat reaksiya verirmi? Ölkəmizlə olan səmimi, stabil münasibətləri saxlamaq üçün Rusiya daha hansı addımları atmalıdır?

**Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, baş verənlərin fonunda Gürcüstan Prezidentinin açıqlaması maraqlıdır:** "Xanım Zurabişvili Rusiyanı işğalçı adlandırmaqla müxalifətçiləri sakitləşdirmək və həm öz hakimiyyətini, həm də onu iqtidara gətirən "Gürcü arzusu" partiyasını qorumaq məqsədi güdür. Təbii ki, rusiyalı deputatın spiker kürsüsündə əyləşməsi iğtişaşlara bəhanə oldu, çünki vəziyyətin bu məcrada cərəyan etməsi gözlənilən idi. Lakin proseslər bir qədər tez başladı, hadisələrin 2020-ci il parlament seçkiləri ərəfəsində geniş vüsət alacağı gözlənilən idi. Bəlkə də Qavrilovun spiker kürsüsündə əyləşməsini



gürcü müxalifəti rəmzi bir mesaj kimi qəbul edib və gələnilki parlament seçkilərində Rusiyayönümlü qüvvələrin parlamentdə üstün olacağı kimi qəbul edərək hiddətləniblər.

Bu ayın əvvəlində Gürcüstan Baş naziri ABŞ-da yüksək səviyyəli görüşlər keçirdi, o cümlədən, dövlət katibi Mayk Pompeo ilə görüşdü. Artıq ABŞ Gürcüstanda açıq nüfuz savaşına başlayıb və Qərbə bağlı müxalifətin Rusiyaya bağlı "Gürcü arzusu" partiyasının qərargahına hücum etməsi Amerikanın Rusiyaya hücumu kimi qəbul edilə bilər. Vaşinqton Moskvaya Gürcüstanı ona buraxmayacağı mesajını verdi. Ermənistanda da ötən il bənzər proseslər baş vermişdi. Azərbaycan xalqı isə Rusiyaya radikal yanaşmanı daha çox müstəqilliyin ilk illərində ortaya qoymuşdu. İndi isə Rusiyaya münasibət cəmiyyətdə birmənalı deyil".

Politoloqun sözlərinə görə, Rusiya bizim əbədi qonşumuz, böyük dövlətdir: "Onun maraqlarını heç bir güc, dövlət, hətta ABŞ inkar edə bilməz. Hər şeyi Rusiyadan gözləmək, hər şeydə Moskvanı günahlandırmaq, yaxud əksinə, ona sitayiş etmək doğru mövqe deyil. Rusiyadan nə çox gözləntilərə qapılıb, məyus olmamalı, yaxud əksinə, onu inkar etməməliyik. Bizim Rusiya ilə münasibətimizdə əsas prioritet müstəqilliyimizə xələl gəlməməsi olmalıdır. Çünki Moskva, təbii olaraq, fövqəldövlət statusunu bərpa etməkdən ötrü regionda öz mövqeyini qoruyub-saxlamalı, onu gücləndirməli və digər güclərə öz nüfuz dairəsinə müdaxilə etməyə imkan verməməlidir. Təbii ki, Rusiyanın regionda öz maraqlarını həyata keçirmək üçün geniş və təsirli vasitələri var.

Rusiya Qarabağ məsələsini Qafqazdakı geosiyasi mövcudluğunu saxlamağın əsas vasitəsi kimi görür. Ölkəmizin KTMT, AİB kimi hərbi, iqtisadi təşkilatlara qoşulması, daxili siyasi sistemimizin Rusiyanın istədiyi formada olması, Qarabağda sülhməramlı qüvvələr qismində Rusiya hərbi qüvvələrinin yerləşdirilməsi işğal olunmuş rayonların geri verilməsinə təsir edə bilərdi. Rusiyanın Cənubi Qafqaz ölkələrinə münasibətində siyasəti ilk növbədə onun siyasi maraqlarının, fövqəldövlət statusunun bərpasına yönəlib. Azərbaycan bu münasibətləri qarşılıqlı faydalı əməkdaşlıq və milli maraqlar əsasında davam etdirərsə və Rusiya bunu ədalətli şəkildə qiymətləndirərsə, heç bir radikal etiraza, iğtişaşa ehtiyac qalmaz".

***Məhəmmədəli QƏRİBLİ***

# Körfəzdə böyük müharibə təhlükəsi... Tramp İranı vurmaq əmri verdi, hücuma 10 dəqiqə qalmış geri addım atdı

**Körfəz bölgəsində yaşanan son hadisələr İran-ABŞ müharibəsinin artıq qaçılmaz olduğunu göstərir. Öncə ard-arda neft tankerlərinə hücumlar, ardınca İranın ABŞ-a aid pilotsuz uçan aparatı vurması bölgədə müharibə ehtimalını sürətlə artırır.**



Qeyd edək ki, ABŞ dronunun vurulmasından sonra SEPAH generalı bunun bir mesaj olduğunu bəyan edib. "İranın böyük bir səhv etdiyini" deyən ABŞ prezidenti Donald Tramp isə jurnalistlərin "ABŞ-ın İrana hücum planı varmı" sualına "Tezliklə görəcəksiniz" deyə cavab verib.

Pilotsuz aparatın vurulmasından sonra Ağ Evdə Tehrana qarşı cavab addımları ilə bağlı toplantı keçirilib. Ancaq toplantının detalları ilə bağlı heç bir açıqlama verilmir.

"New York Times" qəzeti isə Trampın İrana məhdud şəkildə hücum əmri verdiyini, amma bir neçə saat sonra bu qərarından imtina etdiyini iddia edib.

Qəzetin məlumatına görə, bölgədəki hərbi təyyarələr və gəmilər də daxil olmaqla, ABŞ hərbi qüvvələri bəzi İran hədəflərini vurmaq üçün hazır vəziyyətə gətirilib. Ancaq bu planlar heç bir raket atılmadan ləğv edilib.

Trampın geri addım atmasının səbəbləri açıqlanmır, hücum əmrini gələcəkdə yenidən gündəmə gətirib-gətirməyəcəyi isə məlum deyil.

Tramp İrana qarşı hücum əmri verdiyini və 10 dəqiqə qalmış bundan imtina etdiyini təsdiqləyib. Tramp İrana qarşı sanksiyalara üstünlük veriləcəyini deyib.

"Bazar ertəsi İran beynəlxalq sularda pilotsuz uçan aparatımızı vurdu. Srağagün axşam hücum etsəydik, 3 fərqli obyekt hədəfə alınacaqdı. Neçə adamın öləcəyini soruşdum və bir general mənə 150 adamın öləcəyini söylədi. Mən hücumu 10 dəqiqə qalmış dayandırdım, çünki qeyri-mütənasib bir cavab olacaqdı. İran məsələsinə tələsmirəm. Srağagün gecədən etibarən daha çox sanksiya tətbiq etməyə başladıq. İran heç vaxt nüvə silahına sahib olmayacaq" - ABŞ Prezidenti deyib.

Bu arada ABŞ-a səslənən Rusiya müharibənin bir addımlığına gəlindiyinə dair xəbərdarlıq edib. Rusiya Xarici İşlər Nazirliyi ABŞ-ı İranla mümkün müharibənin nəticələrini düşünməyə çağırıb. Rusiya Prezidenti Vladimir Putin isə ABŞ-İran qarşıdurmasının bölgə üçün "fəlakət" olacağını və bunun ABŞ-a da təsir edəcəyini deyib. "Belə bir müharibə zorakılığı Orta Şərqdə qaçqın axınını artıra bilər" - Putin deyib.

İran hökuməti rəsmisi "Reuters"ə ABŞ Prezidenti Trampın Oman vasitəsilə İrana hücumun "qəflətən" olacağına dair bir mesaj göndərdiyini açıqlayıb: "Tramp Oman vasitəsilə İrana mesaj göndərdi. Mesajında İranı hücum edəcəyilə təhdid edir".

"Biz müharibə deyil, danışıqlar aparmaq istəyirik" deyən Tramp İrana danışıqları başlamaq və mesajına cavab vermək üçün vaxt verib.

BMT baş katibi Antonio Quterres də İranın ABŞ-ın pilotsuz uçan aparatını vurması da daxil olmaqla, Körfəz bölgəsində son vaxtlar baş verən hadisələrlə bağlı tərəfləri gərginliyi azaltmağa çağırıb. Bunu BMT baş katibinin sözçüsü Stepan Dujarric İran-ABŞ gərginliyini dəyərləndirərkən deyib.

"BMT baş katibi Antonio Quterres Körfəz bölgəsindəki son hadisələrdən son dərəcə narahatdır" deyən Dujarric bütün tərəfləri maksimum sakitliyə və mövcud gərginliyin daha da artmasına yol verməməyə çağırıb.

**"Baş katib bir daha təkrarladı ki, dünya Körfəz regionunda baş verən böyük bir münaqişənin bədəlini ödəyə bilməz", - Dujarric deyib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ danışıqlarına dair Vaşinqtonda yeni sənədlər təqdim olunub?

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistanın XİN rəhbəri Zöhrab Mnatsakanyan arasında baş tutan Vaşinqton görüşü bəzi detallarına görə xüsusi diqqət cəlb edir. İlk növbədə o baxımdan ki, səslənən məlumatlara əsasən, həmsədrlər danışıqlar prosesində tərəflərə münaqişənin həllində nəticə verə bilən yeni sənədlər təqdim edib.**

Bunu görüş barədə məlumat verən Azərərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da təsdiq edib.

Ümumiyyətlə, azərbaycanlı nazirin açıqlamalarından belə bəlli olur ki, Bakı Vaşinqton görüşündən sonra Ermənistanla Dağlıq Qarabağ münaqişəsinə dair danşıqları davam etdirməyə hazırdır. Məhz bu da danışıqlar vasitəsilə müəyyən yeniliklərin olmasını istisna etmir. Çünki Azərbaycan əvvəldən də bəyan etmişdi ki, nəticəsi olmayan danışıqlara qatılmaq niyyətində deyil. Amma Vaşinqton təmaslarından sonra danışıqların davamı barədə Elmar Məmmədyarovun açıqlamaları artıq hansısa nəticələrin əldə edilə biləcəyi ehtimalını artırır. Nazir bu xüsusda bildirib ki, Vaşinqtonda Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunub: "Aramızda hələ də ciddi fərqlər qalır. Ümumiyyətlə, biz təqdim olunan təklifləri anlayırıq. Bunlar eyni təkliflərdir. Biz 15 ildir ki, müzakirə olunan ideyaları, eyni sülh planını izləyirik". Bununla belə, Elmar Məmmədyarov görüş zamanı "intensiv və dərin" danışıqların aparıldığını qeyd edərək, həmsədrlərin daha məzmunlu danışıqlar üçün əlavə sənədlər təqdim etdiyini söyləyib. O, son vaxtlarda təmas xəttində hərbi durumun gərginləşməsinin xoşagəlməz hal olduğunu bildirərək, eyni zamanda danışıqların davam edəcəyinə əminliyini ifadə edib: "Detallarda bəzi fikir ayrılıqları var idi, ancaq müzakirələrin əsas məğzi də məhz detallardır. Biz dərk edirik ki, daha çox siyasi iradə nümayiş etdirməliyik. Hətta təmas xəttindəki situasiya yekunda bəyannamə, yaxud sülh müqaviləsinə doğru irəliləyişə mane olmamalıdır". E.Məmmədyarov indiyədək tərəflər arasında etimadı gücləndirməyə yönəlik bir sıra mübadilələrin həyata keçirildiyinə də diqqət çəkib. O, problemin həlli istiqamətində bəzi ilkin addımların atılmasının əhəmiyyəti haqda danışıb: "Ən vacib elementlərdən biri hərbçilərin kazarmalara qayıtmasıdır. Hərbçilərin kazarmalara qayıtması sülh üçün daha yaxşı zəmin yaradacaq. Vəziyyətin normallaşdırılmasından danışanda digər vacib məsələ, Parisdə və Moskva görüşlərimizdə danışdığımız kimi, biz əhalini sülhə hazırlamalıyıq".

ATƏT-in Minsk Qrupunun həmsədrləri də görüşdən sonra tərəfləri substantiv danışıqlara yardım edən sülh mühitinin bərpası üçün təxirəsalınmaz tədbirlər görmək, həmçinin atəşkəs rejiminə ciddi şəkildə riayət etməyə bağlılıqlarını təsdiq etməyi çağırıb. XİN rəhbərləri isə bu fonda yaxın vaxtlarda həmsədrlərin vasitəçiliyi ilə növbəti görüşün keçirilməsi barədə razılığa gəlib.

Beləliklə, yuxarıda səslənən fikirlərdən aydın olur ki, Vaşinqton görüşünə Azərbaycan nikbin yanaşır. Ermənistanda isə bu sahədə fərqli durum hökm sürür. Məsələn, Respublika Partiyasının sədr müavini, parlamentin sabiq deputatı Armen Aşotyanın sözlərinə görə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü yekunlaşdıran ATƏT-in Misk Qrupu həmsədrlərinin mətbuat bəyanatlarından bəzi məsələlər ortaya çıxır: "Vyana-Sankt-Peterburq-Cenevrə razılaşmalarının yerinə yetirilməsi zərurəti yenidən diqqətə çatdırılmayıb. Görüş zamanı həmsədrlər tərəfindən daha öncə təklif olunan təhlükəsizlik təşəbbüslərinin məzmunu bizim üçün naməlum qalıb. Tərəflər ilk dəfə cəbhə xətti boyu ərazilərdə mühəndis işlərinin dayandırılması üçün çağırış etdilər. Hesab edirəm, bu çağırış gecikib. Çünki Azərbaycan Düşənbə razılaşmasından istifadə edib. Birbaşa əlaqənin layiqincə istifadəsinin əhəmiyyəti barədə xatırlatma onu göstərir ki, Düşənbədə əldə edilmiş bu razılaşma bu müddət ərzində təbliğat kimi istifadə edilib və öz məqsədinə xidmət etməyib. Həmsədrlər yenə də Azərbaycan tərəfindən dövriyyəyə buraxılmış substantiv danışıqlar ifadəsini təkrar edir. Qarabağdakı rejimin isə danışıqlar masasına qaytarılmasına dair hər hansı söhbət yoxdur. Yenə də nizamlanma prinsipləri haqqında hər hansı xatırlatma yoxdur. Yəni Vaşinton görüşü də Azərbaycanın lehinə oldu".

Ermənistanda Vaşinqton görüşü ilə bağlı xüsusi narahatlıq yaradan məqamlardan biri isə bu prosesdə ABŞ-ın aktivləşməsidir. Hesab edilir ki, ABŞ Qarabağ danışıqlarında nəticə üçün Ermənistana qarşı təzyiq rıçaqlarını işə salsa, İrəvanın təcavüzkar siyasətini davam etdirməsi müşkülə çevriləcək. Məsələ burasındadır ki, son dövrlərə qədər ABŞ-ın Qarabağ təşəbbüsləri davamlı xarakter daşımır və Minsk Qrupu daxilində epizodik yer alırdı. Amma son bir ildə vəziyyət dəyişib və bu həm də onu göstərir ki, ABŞ bu prosesdə təşəbbüsü itirmək istəmir. Çünki uzun illərdir münaqişənin həlli istiqamətində fəallığı Rusiya tərəfi göstərirdi və hazırkı real olan təkliflər də Rusiyaya məxsus idi. Münaqişə tərəfləri də keçirilən görüşlərdə bu təkliflər əsasında müzakirələr aparırdılar. Lakin indilikdə ABŞ özü prosesdə aktiv tərəf qismində çıxış edir və istisna deyil ki, həmsədrlərin Vaşinqtonda təklif etdiyi yeni sənəd əsas etibarı ilə ABŞ-ın təklifləri əsasında hazırlanıb və Azərbaycanın da maraqlarına cavab verir. Elə politoloq Qabil Hüseynli də məsələyə bu prizmadan yanaşraq vurğulayır ki, ABŞ tərəfi müxtəlif təzyiqlər göstərməklə Ermənistanı kompromis xarakterli danışıqlar yoluna dəvət edəcək. O bildirib ki, Ermənistan Vaşinqton görüşünü son şans kimi dəyərləndirib qərar verməlidir: "Hesab edirəm ki, bu görüşdə Con Bolton kifayət qədər mühüm rol oynayır. O hələ Bakıda olarkən bildirmişdi ki, bütün erməni qoşunları Dağlıq Qarabağdan dərhal çıxarılmalıdır. Düşünmürəm ki, ABŞ bu mövqeyini dəyişsin. Onlar bunu NATO-nun zirvə toplantısında da qeyd etmişdilər. Hətta həmin toplantıda Azərbaycanın ərazi bütövlüyünə NATO üzvləri səs verdilər. Ermənistan rəhbərliyi yaxşı bilir ki, bu danışıqlardan müsbət nəticə əldə olunmasa, vəziyyət dəyişəcək. Çünki Azərbaycanın bu məsələdə səbri tükənib". Politoloq qeyd edib ki, Vaşinqton torpaqların Azərbaycana qaytarılması məsələsində maraqlı tərəfdir: "Vaşinqton üçün Cənubi Qafqazdakı bu qanlı münaqişənin həll etməyin böyük əhəmiyyəti var. Çünki ABŞ-ın geosiyasi maraqları tələb edir ki, Cənubi Qafqazda az da olsa, öz mövqelərini möhkəmləndirsin. Rəsmi Vaşinqton Azərbaycanın enerji və nəqliyyat siyasətini və bölgədə oynadığı rolu yüksək qiymətləndirir və ölkəmizi regionun lider dövləti kimi qəbul edir. ABŞ həmçinin yaxşı başa düşür ki, Azərbaycanla münasibətlərin yaxşı vəziyyətdə olması Xəzər dənizində müəyyən üstünlüklər qazanıb, Orta Asiya respublikalarına keçmək imkanı yaradır. Bu səbəbdən Vaşinqton danışıqlarda müsbət nəticələr əldə olunması üçün müəyyən addımlar atacaq. Ümumiyyətlə, hesab edirəm ki, bu görüş danışıqların həllində və Ermənistana təsirdə yeni mərhələ ola bilər". Hər halda, Azərbaycanın da əsas istəyi münaqişə ilə bağlı nəticələrin əldə olunmasıdır. Bakı hələ də bunun sülh yolu ilə əldə olunmasını istəyir. Azərbaycan açıq bəyan edir ki, sülh yolu ilə nəticələr əldə olunmasa, savaş qaçılmazdır. Bu mənada, Vaşinqton görüşündən 2 gün əvvəl Azərbaycan müdafiə naziri Zakir Həsənovun jurnalistlərlə görüşməsi və mühüm bəyanatlar səsləndirməsini də qətiyyən təsadüf adlandırmaq olmaz. Həmin görüşdə ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində də genişmiqyaslı işlərin görüldüyünü deyən Z.Həsənov bildirib: "Bilirsiniz ki, döyüş hazırlığının əsas hissəsi şəxsi heyətin, hissə və birləşmələrin səhra bacarığının artırılmasıdır. Biz tez-tez irimiqyaslı təlimlər keçiririk, müasir təlim mərkəzləri qurmuşuq. Təlimlər döyüş vəziyyətinə maksimum yaxın şəraitdə, gecə və gündüz, ilin bütün fəsillərində keçirilir. Biz gündən-günə daha böyük hissə və birləşmələri bu təlimlərə cəlb edirik. 2016-cı ildə üç gün ərzində Azərbaycan ordusunun kiçik bir hissəsi bütün Ermənistan ordusunu darmadağın etdi. Azərbaycan ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır".

Ermənilər özləri də etiraf edir ki, Bakı danışıqlarda istədiyi nəticəni almasa, buna güc yolu ilə nail olacaq. "Sasna Tsrer" partiyasının üzvü Ara Papyan da ordumuzun təlimləri fonunda bununla ilgili bildirir: "Ümumiyyətlə, son dövrlərdə ildən-ilə təlimlərin, cəlb edilən şəxsi heyətin, texnikanın sayında artım qeydə alınıb. Hətta cəlb edilən ölkələrin sayı da artmaqdadır. Təlimlərə artıq Türkiyə, Gürcüstan da cəlb edilməkdədir. Bu onu göstərir ki, Azərbaycan müharibəyə də ciddi hazırlıq görür. Lakin sərhəddə gərginliyin artması bu vəziyyətlə əlaqəli deyil. Sadəcə, sərhəddə güc nümayişi həyata keçirilir. Amma Azərbaycan istənilən an savaşa başlaya bilər. Təbii ki, danışıqlarda istədiyi nəticəni görməsə". "Voskanapat" analitik mərkəzinin rəhbəri Hrant Melik-Şahnazaryan qeyd edir ki, hazırda cəbhədə təhlükəsizlik tədbirlərinin artırılması və atəşkəs pozuntularının sayının azalması barədə çox danışılır:

"Lakin aydındır ki, keçən ilin sentyabr ayından başlayaraq indiyədək zənn edilən sakitlik görünüşündən rəqib gələcəkdə daha əlverişli mövqelərdən hücum həyata keçirilməsi üçün istifadə edir. Bu bir neçə aylıq nisbi qeyri-müəyyən sakitliyin əvəzini ön xətdə erməni tərəfi itkilərlə ödəyir. Bütün məsələ ondan ibarətdir ki, hakimiyyətə və Paşinyana indiki məqamda yalnız nəticələri göstərmək lazım idi. İstənilən halda müharibə olacaq. Dövlət rəhbərinin müharibəni susduran mexanizmləri dağıtdığı bir vaxtda müharibə olmaya bilməz". Hələlik isə Vaşinqton görüşü Dağlıq Qarabağ münaqişəsinin həllində ən azı irəliləyişin baş verəcəyinə müəyyən ümid yaradır. Əks təqdirdə bu irəliləyiş savaş yolu ilə əldə olunacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Yuxarıdan sosial inqilab siyasəti yoxsulluq səviyyəsinə necə təsir göstərəcək...

**Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı sərəncamlarla minimum əməkhaqqı, ayrı-ayrı dövlət orqanları əməkdaşlarının, müəllimlərin, dövlət qulluqçularının aylıq maaşları artırıldı. Eyni zamanda, minimum əmək pensiyasının 160 manatdan 200 manata çatdırılmasına qərar verildi.**



## *Aydın Hüseynov: "Minimum əməkhaqqının qaldırılması və digər artımlar ölkədə yoxsulluq səviyyəsinin daha da aşağı düşməsinə öz təsirini göstərəcək"*

Bununla bir daha təsdiq olundu ki, ölkədə dövlət siyasətinin mərkəzində insan amili dayanır. Əhalinin sosial rifahının gücləndirilməsi daim prioritet olaraq qalır.

2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına ölkə başçısının sərəncamları ilə geniş sosial paket elan edildi. Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək, minimum əməkhaqlarının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin və s. artmasına səbəb oldu. Sosial paket elan edilərkən ölkə başçısı bunun davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşmasına sərf ediləcəyini bəyan etdi. Belə bir şəraitdə sosial addımların atılmasının iqtisadi əsasları da təmin edilməkdədir. Bu istiqamətdə verilən son sərəncamlar görülən işlərin əhalinin sosial vəziyyətinin daha da yaxşılaşmasına xidmət etdiyini göstərdi. Hansı ki, pensiya və məvaciblərin artırılması bunu bir daha sübut etdi.

Bütün bunların fonunda, sözügedən artımlar ölkədə yoxsulluq səviyyəsinin daha da azalmasında necə rol oynaya bilər?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, sözügedən artımlar və minimum əməkhaqqının yaşayış minimumundan yüksək olması yoxsulluq səviyyəsinin azalmasına ciddi təsir edəcək: "Bütövlükdə götürdükdə, Azərbaycanda yoxsulluq 5 faiz həddindədir. O da məlumdur ki, əsasən aşağı təbəqə 180 manata qədər maaş alırdı. Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması və digər artımlar ölkədə yoxsulluq səviyyəsinin daha da aşağı düşməsinə öz təsirini göstərəcək. Nəzərə almaq lazımdır ki, bu təkcə əməkhaqqı alanların sosial durumuna müsbət təsir etməyəcək. Bu, dolayısı ilə, digər ölkə vətəndaşlarının da maddi durumuna müsbət təsir edəcək. Məsələ ondadır ki, əməkhaqqı artan vətəndaşlarımız bazarlara üz tutacaqlar. Bu da, öz növbəsində, bir sıra məhsullara olan tələbatı artıracaq. Nəticədə həmin məhsulların istehsal və satışında iştirak edən şəxslər bundan qazanacaqlar. Artımlar xırda sahibkarlığın inkişafına təkan verəcək. O mənada ki, əməkhaqqı və ailə büdcəsi artırsa, bu, dolayısı ilə, digər şəxslərin də maddi durumuna müsbət təsir edir.

*"... digər şəxslərin də maddi durumuna müsbət təsir edir"*

Məsələn, vətəndaş hər hansı bir hədiyyə almaq istəyəcək, əşya götürmək istəyəcək və s. Deməyim odur ki, bütün bunlar digər sektorlara da öz təsirini göstərəcək. Bu həm də vətəndaşların məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir".

***Vidadi ORDAHALLI***

# Cəmi 7 ayda 5 milyon Azərbaycan vətəndaşı 2,5 milyard manat pul aldı - əlavə olaraq...

**Prezident İlham Əliyev 2019-cu ilin ötən dövrü ərzində sosial məsələlərlə bağlı bir sıra qərarlar qəbul edib. Bu da onu göstərir ki, əhalinin bütün qruplarının rifahının yüksəldilməsi həyata keçirilən sosial siyasətin əsas leytmotividir.**



## *Rəsul Cahangirli: "Bu kifayət qədər böyük rəqəm olmaqla yanaşı, əhalinin vəziyyətinə ciddi şəkildə müsbət təsir edəcək"*

Bütövlükdə, Prezident İlham Əliyevin fevral ayında qəbul etdiyi sosial qərarlar təxminən 3 milyon vətəndaşı əhatə edib.

Maddi tərəfinə gəldikdə isə, bu, böyük məbləğdə büdcə vəsaiti deməkdir. Konkret desək, 2019-cu ilin fevralında Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlara əsasən, 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi məqsədlərinə 1,5 milyard manat ayrılıb.

Ölkə başçısının iyunun 18-də imzaladığı sərəncamlar isə bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirlərin növbəti mərhələsidir. Ölkədəki mütərəqqi sosial siyasəti özündə növbəti dəfə bariz şəkildə ehtiva edən son qərarlar, ümumilikdə, 2 milyon insanı əhatə edir.

Bu məqsədlə 1 milyard manat vəsait ayrılıb. Bununla həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşacaq.

Bir sözlə, 2,5 milyard manatlıq sosial paket cəmi 7 ayda üst-üstə 5 milyon ölkə vətəndaşının maddi durumuna müsbət təsir edəcək. Nəzərə alsaq ki, ölkə əhalisinin sayı 10 milyon nəfərdir, bunun necə böyük sosial əhəmiyyətə malik olduğunu təsəvvür etmək çətin deyil.

O baxımdan, ekspertlər bunun əhəmiyyətini necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bütün bunlar çox mühüm əhəmiyyətə malikdir:** "Məsələ ondadır ki, bu il dövlət büdcəsindən bu məqsədlə üst-üstə 2,5 milyard manat vəsait ayrılacaq.

Bu kifayət qədər böyük rəqəm olmaqla yanaşı, əhalinin vəziyyətinə ciddi şəkildə müsbət təsir edəcək. Faktiki olaraq, ölkə əhalisinin böyük hissəsi bu ayırmalardan faydalanacaq. Ölkənin artan maliyyə imkanları əhalinin sosial rifahının yüksəldilməsinə yönəldilib.

*"Ölkənin artan maliyyə imkanları əhalinin sosial rifahının yüksəldilməsinə yönəldilib"*

Azərbaycan dövlətinin prioritet istiqamət olaraq qəbul etdiyi sosialyönümlü siyasət əhalinin maddi rifahının yaxşılaşdırılmasına və sosial müdafiəsinin gücləndirilməsinə istiqamətlənmiş xətdir. Hesab edirəm ki, ölkə vətəndaşlarının sosial rifahının artımı bundan sonra da davam edəcək. Azərbaycanın qeyri-neft sektoru inkişaf etdikcə, bu və ya digər formada ölkənin iqtisadi imkanları artdıqca, insanların rifahının yüksəldilməsi üçün addımlar atılacaq. Çünki dövlət başçısının həyata keçirdiyi sistemli siyasət buna xidmət edir.

**Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində həm iqtisadiyyat inkişaf edir, həm də büdcəyə daxilolmaların həcmi getgedə artır. Bütün bunlar bir-birilə sıx bağlı olduğu üçün, daha çox ölkə vətəndaşı artımlardan faydalanmaq imkanı əldə edir".**

***Vidadi ORDAHALLI***

# May ayında milli valyutada əmanətlər 25 faiz çoxaldı - manata ictimai inamın yeni ifadəsi...

**Açıqlanan statistik rəqəmlərə əsasən, banklarda milli valyuta ilə yerləşdirilən əmanətlərin həcmi artıb. Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,6 faiz artaraq 8 milyard 715 milyon manat təşkil edib.**



## *Fuad İbrahimli: "Manatın məzənnəsinin uzun müddət sabit qalması dollar əmanətlərinin manat əmanətlərinə çevrilməsini sürətləndirdi"*

Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, əmanətlərin 58,5 faizi xarici, 41,5 faizi isə milli valyutada qoyulub. Milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 25,4 faiz, xarici valyutada əmanətlər isə 2 faiz artıb.

Mayda milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 avroya - 1,90 (1,92) manata, 100 rus rubluna 2,62 (2,60) manata bərabər olub.

Ekspertlər milli valyuta ilə yerləşdirilən əmanətlərin həcminin artmasının gözlənilən olduğunu bildirirlər. Onların fikrincə, milli valyutanın möhkəmlənməsi manata inamı artırır.

**İqtisadçı-ekspert Fuad İbrahimli bildirdi ki, son vaxtlar manatla əmanətlərin saxlanmasına daha çox üstünlük verildiyi müşahidə edilir:** "Bu da ondan ibarətdir ki, artıq xeyli müddətdir manatın məzənnəsi stabilləşib. Manatla əhalinin vəsaitlərinin saxlanmasına artıq meyl artıb. Bu da banklarda aparılan islahatlar və qanunvericiliyə edilən dəyişikliklərlə bağlıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, manatın məzənnəsinin uzun müddət sabit qalması dollar əmanətlərinin manat əmanətlərinə çevrilməsini sürətləndirdi: "Həmçinin, nəzərə alaq ki, manatla depozit faizləri kifayət qədər yüksəkdir. Dollarla olan əmanətlərdən isə ən yaxşı halda 2 faiz gəlir əldə etmək mümkündür. Bu da manat depozitlərinə cəlbedicilik yaratdı. İnsanlar əllərində olan manatı depozitə yatırdılar.

*"Manatla depozit faizləri kifayət qədər yüksək olduğu üçün, manat depozitlərinə cəlbedicilik yaranıb"*

Eyni zamanda, bank sisteminə də müəyyən güvən yarandı. Bununla da dollarla olan kreditlərin bir hissəsi manata çevrildi. Bütün bunlar manat depozitlərinin həcmində yüksəlişə səbəb oldu.

Manat sabit qalacaqsa, proses bu il də davam edəcək. Manatın məzənnəsində isə, ən azından, yaxın müddət üçün bir dəyişiklik gözlənilmir. Odur ki, manatla olan depozitlərin həcminin artması bu il də gözlənir. Manatla depozitlərdə faizlər yüksək qaldıqca, cəlbedicilik də artacaq".

*Günel CƏLİLOVA*

# Minimum əməkhaqqının artımının bölgələrdən Bakıya işçi köçünə əks təsir göstərmək gücü...

**Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə ölkə başçısı tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir.**



## *Vüqar Bayramov: "Sözügedən artımlar bölgələrdən paytaxta gələn əməkçi miqrantların sayının azalmasına səbəb ola bilər"*

Minimum əməkhaqqının artırılmasının bir sıra üstünlükləri var. Bunun bir üstünlüyü ondan ibarətdir ki, dövlət sektorunda çalışan şəxslərin minimum məvaciblərinin artırılması özəl sektora da öz təsirini göstərir. Bunun nəticəsində özəl sektorda çalışanların da minimum əməkhaqqı artırılacaq.

Digər tərəfdən, bu, regionlarda işləyənlərin də həyat şəraitinə müsbət təsir göstərəcək. Məsələ ondadır ki, zaman-zaman iş dalınca regionlardan Bakıya və ölkənin digər böyük şəhərlərinə gedənlər olur. Regionların inkişafına dair dövlət proqramları qəbul edildikdən sonra bu sahədə vəziyyət əhəmiyyətli dərəcədə müsbətə doğru dəyişdi. Ancaq buna rəğmən, minimum əməkhaqqının aşağı olduğunu əsas gətirib regionlardan paytaxta iş dalınca gələnlər olur. Beləlləri bunu məhz məvaciblərin azlığı ilə əlaqələndirir. Bu səbəbdən bölgələrdə əməkçi miqrantlar iş dalınca əsasən paytaxta üz tuturlar. Görürsən ki, məktəbdə gözətçi işləyən, digər dövlət sektoruna aid sahədə fəaliyyət göstərənlər bu şəxslərdir. O baxımdan, minimum əməkhaqqının məbləğinin 40 faizə yaxın artırılaraq 250 manata çatdırılması bölgələrdən əməkçi miqrantların iş dalınca paytaxta üz tutması hallarının azalmasına necə təsir göstərəcək?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, sözügedən artımlar bölgələrdən paytaxta üz tutan əməkçi miqrantların sayının azalmasına öz təsirini göstərəcək:** "Ümumilikdə, əməkhaqqı artımları birmənalı şəkildə vətəndaşların sosial təminatının yaxşılaşdırılmasına yönəlib. Eyni zamanda, bu artımlara gedilməsində məqsəd ondan ibarətdir ki, bölgələrdə çalışan vətəndaşların sosial vəziyyəti daha da yaxşılaşsın. Dövlət vəsaiti hesabına bölgələrdə yaradılan iş yerlərinin sayında artım baş verir. Bölgələrdə nə qədər çox iş yeri yaradılsa, bu bir o qədər paytaxta iş dalınca gələnlərin sayının azalmasına öz təsirini göstərəcək. Çünki monitorinqlər göstərir ki, bölgələrdən vətəndaşların paytaxta gəlməsinə səbəb məhz onların daha yüksək əməkhaqqı işi ilə təmin olunmaq istəyidir. Ona görə də sözügedən proseslər mərhələli şəkildə öz səmərəsini verəcək.

*"Ancaq biz bunu birdən-birə yox, mərhələli şəkildə müşahidə edəcəyik"*

Minimum əməkhaqqının artırılması bölgələrdən paytaxta gələn əməkçi miqrantların sayının azalmasına səbəb ola bilər. Göründə ki, məvaciblər artır, o zaman harasa miqrasiya etməkdə maraqlı olmayacaqlar. Ancaq hesab edirəm ki, biz bunu birdən-birə yox, mərhələli şəkildə müşahidə edəcəyik.

**Bütün bunlarla yanaşı, həm dövlət büdcəsi, həm də özəl sektor hesabına daha çox iş yerinin yaradılması bölgələrdəki vətəndaşlarımızın işlə təminatı prosesini gücləndirəcək. Bu həm də paytaxtla bölgələr arasında fərqin mərhələli şəkildə azaldılmasına gətirib çıxaracaq".**

*Vidadi ORDAHALLI*

**Azərbaycan orta ümumtəhsil məktəblərində qadın və kişi müəllimlərin nisbətinin pozulmasından daha çox oğlan şagirdlər əziyyət çəkirlər. Kişilərin müəllimlik fəaliyyətinə kütləvi maraq göstərməməsinin səbəbi kimi əsasən əməkhaqqının aşağı olması göstərilir. Cəmiyyətdə belə bir fikir mövcuddur ki, müəllim maaşı ilə ailə saxlamaq çətindir.**

# Müəllimlərin maaşlarının artımı məktəblərin bir ağır problemini də həll edəcək - kişi müəllimlərin azlığı...

## *Kamran Əsədov: "Ölkə Prezidenti tərəfindən müəllimlərin əməkhaqqının dəfələrlə artırılması kişi müəllimləri yenidən məktəblərə qaytaracaq"*



Məlum olduğu kimi, son bir neçə ildə müəllimlərin maaşında xeyli artım baş verib. Prezident İlham Əliyevin bir neçə gün əvvəl imzaladığı sərəncamlarla bir sıra sahələrdə fəaliyyət göstərənlərin, eləcə də müəllimlərin maaşı yenidən qaldırılıb. Prezident sərəncamı ilə müəllimlərin maaşının artması sıradan bir göstərici deyil. Müəllimlərin əməkhaqlarının qaldırılması mütəmadi olaraq dövlətin diqqət mərkəzində olan məsələdir və dövlət daim bu amili diqqətdə saxlayır.

Müəllimlərin əməkhaqlarının 20 faiz artırılması kişi müəllimlərin orta ümumtəhsil məktəblərində dərs deməyə maraq göstərməsinə nə kimi şərait yaradacaq?

Ekspertlər qeyd edirlər ki, son dövrlər bir neçə dəfə Azərbaycan müəlliminin əməkhaqqının artırılması nəticəsində müəllimlər 600-700 civarında maaş alırlar. Onlar hesab edirlər ki, maaş artımı ali məktəbi müəllim kimi bitirən kişilərin pedaqoji fəaliyyətlə məşğul olmasına imkan verir. Bu gün Azərbaycan müəlliminin normal əməkhaqqı aldığını deyən mütəxəssislərin bildirdiyinə görə, bu həm müəllimlik peşəsinin başqa peşələrə dəyişən kişilərin də orta təhsilə qayıtmasına əsas verir.

**Tanınmış təhsil mütəxəssisi Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, son illər Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır.** "İlk növbədə qeyd edim ki, təhsil sistemində müəllimlərin 79 faizini qadınlar, təhsil alanların isə 47 faizini qızlar təşkil edir. Peşə təhsilində bu göstərici təhsil verənlər üzrə 69, təhsil alanlar üzrə 33, orta ixtisas sahəsində təhsil verənlər üzrə 78 faiz təşkil edir. Bakalavriat səviyyəsində təhsil alanların 50, magistratura səviyyəsində 54, doktorantura səviyyəsində isə 56 faizini qadınlar təşkil edir. Hazırda fəlsəfə doktorlarının 51, elmlər doktorlarının isə 46 faizini qadınlar təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir. Son illər Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır. Bunu təhsilin bütün sferalarında aparılan davamlı islahatlar bir daha təsdiq edir. 2014-2018-ci illərdə Təhsil Nazirliyinin diaqnostik qiymətləndirməsindən keçən müəllimlərin orta aylıq əməkhaqqı 465 manatdır. 2014-cü ildən bu günə kimi 142 min müəllim diaqnostik qiymətləndirmədən keçib. Amma maaşın 20 faiz artımı diaqnostik qiymətləndirmədən keçməyənlərə də şamil olunur. Əməkhaqlarının artımı diaqnostik qiymətləndirmədən keçən bütün müəllimlərə şamil ediləcək. Amma artım zamanı qiymətləndirmədən keçən müəllimlər arasında fərq qoyulmayacaq, artım bütün müəllimlərin əməkhaqlarına eyni səviyyədə təsir göstərəcək.

*"Aparılan islahat nəticəsində həmin müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb"*

Hazırkı dövrdə diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin dərs bölgüsü zamanı nəzərə alınır. Bu o deməkdir ki, diaqnostik qiymətləndirmənin nəticələri yüksək olan müəllim daha çox dərs saatı alacaq və bu da onun yüksək əməkhaqqı almasına imkan verəcək".

K.Əsədovun qeyd etdiyinə görə, bu artımdan sonra təkcə Bakı şəhərində 8965 nəfər müəllimin əməkhaqqı 500-1000 manat, 476 nəfər müəllimin əməkhaqqı isə 1000 manatdan yuxarı olub. "Aparılan islahat nəticəsində həmin müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb. Yeni artımdan sonra müəllimlərin əməkhaqqı orta hesabla 77-99 manat artıb. İndi pedaqoji stajı 3 ilə qədər olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 462 manat, pedaqoji stajı 18 ildən çox olan və və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 594 manat aylıq əməkhaqqı alacaq. Ölkə Prezidenti tərəfindən müəllimlərin əməkhaqqının dəfələrlə artırılması kişi müəllimləri yenidən məktəblərə qaytaracaq" - deyə mütəxəssis qeyd etdi.

***İradə SARIYEVA***

**Paytaxt Bakının vaxtlı-vaxtında daşınmadığından qalaq-qalaq yığılan məişət tullantıları problemi illərdir həllini tapmır. Xüsusilə Bakıətrafı kənd və qəsəbələrdə ərzaq tullantıları küçəboyu səpilir, üfunətdən nəfəs almaq mümkün olmur. Natəmiz ərazilər isə sahibsiz heyvanların məskəninə çevrilir. Təbii ki, belə şəraitdə müxtəlif növ xəstəliklər yaranır.**

# Zibilə görə Bakı bələdiyyə sədrlərinin cəzalandırılmasına çoxdan başlamaq lazım idi...

## *İlqar Hüseynli: "Tək Bakıətrafı qəsəbələr deyil, mərkəzi ərazilərdə də zibil qutuları gün ərzində bir neçə dəfə boşaldılmalıdır ki, yığılıb ətrafa üfunət saçmasın"*




Bəllidir ki, istənilən ərazinin təmizliyinə, tullantıların vaxtlı-vaxtında daşınması ilə bələdiyyələr məşğul olmalıdırlar. Ancaq bələdiyyələr ərazinin təmizliyi ilə məşğul olmurlar. Onların necə fəaliyyət göstərdiyi sual doğurur.

Tullantıların yığılaraq qalaqlandığı ərazilərdən biri də Suraxanı rayonu, Zığ qəsəbəsidir. Adıçəkilən qəsəbədə tullantıların qalaqlandığı və düzgün idarə olunmadığı aşkar edilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, 11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən keçirilən növbəti reyd zamanı Suraxanı rayonu, Zığ qəsəbəsi ərazisində tullantıların qalaqlandığı və düzgün idarə olunmadığı aşkar edilib.

Faktla bağlı əraziyə cavabdeh Zığ qəsəbə bələdiyyəsinin sədri Kənan Nəsrullayev barəsində protokol tərtib edilib və ona inzibati qaydada 2500 manat məbləğində cərimə tətbiq olunub.

Həmçinin, tullantıların qısa vaxt ərzində təmizlənməsi və gələcəkdə düzgün idarə olunması tələbi ilə bələdiyyə sədrinə icrası məcburi olan müddətli "məcburi göstəriş" verilib.

Ərazinin təmizliyinə nəzarət etməyən qurumların cəzalandırılması ictimaiyyət tərəfindən müsbət qarşılanır. Çünki əksər Bakıətrafı ərazilərdə tullantılar daşınmadığı üçün zibil qalaqlanır və həmin ərazidə xoşagəlməz mənzərə yaranır. Bu cür halların yaşanmaması üçün dəfələrlə aidiyyəti qurumlar tərəfindən müəyyən işlər görülsə də, vəziyyət hələ də eyni olaraq qalırdı. Ancaq bu günlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tullantıları düzgün idarə etməyən bələdiyyəni cərimələməsi təqdir olunur.

**Sosial sahə üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, məişət tullantılarının düzgün idarə olunmamasına görə bələdiyyənin cərimələnməsi müsbət haldır:** "Vəzifəli və hüquqi şəxslərin cərimələrinin artırılması təqdirəlayiqdir. Həmin ərazidə zibil qutusu yoxdursa, buna nəzarət edən qurum cəzalandırılmalıdır.

*"...ərazi üzrə məsul olan bələdiyyənin cərimələnməsindən sonra digər bələdiyyələr..."*

Bu gün elə ərazilər var ki, orada zibil qutusu olsa belə, tullantı əhalinin istifadə etdiyi əraziyə tökülür. Beləliklə, həmin ərazidə tullantılardan ibarət təpəcik yaranır. Həmin ərazidə olan tullantı vaxtında təmizlənərsə, heç bir təpəcik yaranmaz. Ancaq bəzi bələdiyyələr və ya əraziyə nəzarət edən qurumlar öz işinə məsuliyyətsiz yanaşdığına görə onların cərimələnməsi düzgün addımdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, tək Bakıətrafı qəsəbələr deyil, mərkəzi ərazilərdə də zibil qutuları gün ərzində bir neçə dəfə boşaldılmalıdır ki, yığılıb ətrafa üfunət saçmasın. Əks təqdirdə, Bakı, xüsusilə şəhərdən kənar yerlər zibilin içində itib-batacaq: "Onu da bildirim ki, tullantı vaxtında təmizlənmədiyinə görə ərazi üzrə məsul olan bələdiyyənin cərimələnməsi yaxşı haldır. Bundan sonra digər bələdiyyələr cərimələnməmək üçün nəzarət etdikləri ərazini təmiz saxlamağa çalışacaqlar".

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



# "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) gerçəkləşdirdiyi bir sıra mühüm layihələr var ki, onlar vətəndaşların həyatında əhəmiyyətli rol oynayır. Ölkəmiz bir sıra sahələrdə olduğu kimi, enerji sahəsində də böyük nailiyyətlər əldə edib. Əlbəttə, bu işlərin həyata keçirilməsində dövlətin ortaya qoyduğu iradə onların səmərəliliyini artırır.**

Son dövrlər ölkəmizin energetika sahəsində əldə etdiyi uğurlar nəticəsində Azərbaycan Cənubi Qafqazda yerləşən başqa respublikalardan köklü şəkildə fərqlənir. Ölkəmiz dünyanın əsas enerji ixracatçılarından biri kimi dünyada tanınır. Azərbaycanın energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlər həyata keçirilir.

Keçən ilin yay aylarında ölkəmizdə yaşanan qısa enerji böhranı bu aidiyyəti qurumların fəaliyyətini bir qədər də gücləndirib. "Azərenerji" ASC hadisə baş verdikdən sonra bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirir. Bu məqsədlə "Azərenerji" ASC tərəfindən hazırlanaraq dövlət başçısına təqdim edilən "Reabilitasiya üzrə Tədbirlər Planı" əsasında ötən ilin sentyabr ayından etibarən mühüm tədbirlər görülür.

Son aylar proqram çərçivəsində "Azərenerji" ASC "Cənub", "Şimal" və "Bakı" elektrik stansiyalarında bir sıra işlər görüb. Nəticədə 230 MVt güc bərpa edilib. "Azərbaycan" İstilik Elektrik Stansiyasının 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə təmirdən sonra 6 sayli enerji blokunda 60 MVt yük məhdudiyyəti aradan qaldırılıb. Ümumilikdə, Reabilitasiya Proqramı çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES tamamilə yenidən qurulur. Proqram çərçivəsində turbinlər, generatorlar, rele mühafizə sistemi, sexlər, yarımstansiyalar, 500 və 330 kV-luq hava xətləri, əks qəza avtomatikası yenidən qurularaq bərpa edilir. Bundan başqa, yanğınsöndürmə, inzibati bina, idarəetmə mərkəzi inşa edilir. Yuxarı Qarabağ kanalının üzərindən əhali üçün yeni körpü və yolun salınması, yeraltı soyutma su boru sistemlərinin bərpa edilməsi nəzərdə tutulur. Qurumun gələcək planlarına görə, görülmüş işlər nəticəsində stansiyanın gücü 320 MVt artaraq 2000 MVt-a çatacaq.

"Azərenerji" ASC-nin ən mühüm layihəsi olan Reabilitasiya Proqramı çərçivəsində Bakı şəhərində, habelə regionlarda infrastruktur və sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayan "Bakı", "Astara", "Şəki", "Xaçmaz", "Şahdağ" və "Səngəçal" modul tipli elektrik stansiyalarında da itirilmiş gücün bərpası istiqamətində işlər aparıldığı bildirilir. ASC-nin yaydığı məlumata görə, bir çox elektrik stansiyaları və yarımstansiyaların 500, 330, 320, 110 kV-luq hava xətləri, o cümlədən yarımstansiyaların yenidən qurulması işləri aparılır. Qeyd edilənə görə, Reabilitasiya Proqramına müvafiq olaraq hazırda yüksəkgərginlikli elektrik verilişi xətlərində modernləşmə həyata keçirilir, enerjinin idarə edilməsi üçün SCADA dispetçer sisteminin yenidən qurulması istiqamətində işlər görülür.

Bildiyimiz kimi, hazırda Azərbaycanın nəinki qonşu ölkələrə, eləcə də bir sıra nüfuzlu Avropa ölkələrinə elektrik enerjisi ixrac edir və "Azərenerji" ASC Avropa miqyasında keçirilən tenderlərdə qalib olur. Son dövrlər ASC-nin fəaliyyətində əhəmiyyətli dəyişikliklərin hiss olunduğu ictimaiyyətin də nəzərindən yayınmır. Azərbaycanda istehlakçıların keyfiyyətli enerji təminatı sahəsində kompleks tədbirlərin həyata keçirilməsi, infrastrukturun müasirləşdirilməsi, qabaqcıl texnologiyaların tətbiq edilməsi ASC-nin son aylar əldə etdiyi uğurlardan biri sayılmalıdır. Bu gün ASC istehlakçıların etibarlı və dayanıqlı elektrik enerjisi ilə təchizatı istiqamətində sistemli iş aparır. Son illərdə yeni generasiya güclərinin yaradılması hesabına Azərbaycan elektrik enerjisi sahəsində idxalçıdan ixracatçıya çevrilib, Bakı şəhərinin və regionların fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təchizatındakı fasilələr aradan qalxıb. Rəsmi məlumatlara görə, Reabilitasiya Proqramı çərçivəsində energetika sistemində çalışan 5600-dək əməkdaşın sosial vəziyyətinin yaxşılaşdırılması, onların əməkhaqlarının yüksəldilməsi, habelə peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü işlər həyata keçirilib.

Qeyd edək ki, qurumun həyata keçirdiyi işlərin həm miqyası genişlənir, həm də keyfiyyəti yüksəlir. "Azərenerji" ASC-nin mətbuat xidmətindən verilən məlumata görə, Reabilitasiya Proqramına uyğun olaraq, elektrik stansiyaları, dispetçer idarəetmə mərkəzləri, yüksəkgərginlikli ötürmə xətləri ilə yanaşı, sistem əhəmiyyətli yarımstansiyalarda da kompleks tikinti, yenidənqurma və bərpa işləri həyata keçirilir.

Qurumdan bildirilir ki, enerji sistemində yarımstansiyaların yenidən qurulması, o cümlədən, yüklənən transformatorları dəyişərək gücünün çoxaldılması artan gücün qarşılanması və avadanlıqların qızmasının, bununla da qəzaların qarşısının alınması baxımından çox əhəmiyyətlidir. Eyni zamanda, qəza rejimində yükü bir yarımstansiyadan digər yarımstansiyanın üstünə köçürülməsi, itkilərin aradan qaldırılması, ən əsası isə paylayıcı şəbəkə istehlakçılarının daha keyfiyyətli elektrik enerjisi ilə təmin olunması üçün yarımstansiyaların yenidən qurulması və gücünün artırılması olduqca vacib məsələdir. Qurum dövlət tərəfindən ayrılan vəsait və daxili imkanlar hesabına "Azərenerji" ASC-nin balansında olan 220 kV-luq "Xırdalan" və "Müşfiq", 110 kV-luq "8-ci km", "Zabrat", "Əhmədli", "Dübəndi", "Maştağa", "Buta", "Ələt", "Zığ", "Sumqayıt-2", "Gəncə-1", "Quba", "Mingəçevir şəhər", "Sabirabad", "Şəki" və 205 saylı yarımstansiyalar yenidən qurulur.

Bundan başqa, Sumqayıt şəhərində sənaye komplekslərinin qidalandırılması üçün yeni 110 kV-luq "Sulfanol" yarımstansiyası tikilir və işlər yekunlaşmaq ərəfəsindədir.

Paralel olaraq Reabilitasiya Proqramı çərçivəsində son 6 ayda digər yarımstansiyalarda da təmir-bərpa işləri həyata keçirilib və yarımstansiyaların gücü əhəmiyyətli dərəcədə artırılıb. Belə ki, 110 kV-luq "Masazır" yarımstansiyasında 25 MVA transformator 40 MVA transformatorla, "Cənub" yarımstansiyasında 25 MVA transformator 40 MVA transformatorla, 135 saylı yarımstansiyada 2 ədəd 40 MVA transformatorlar 80 MVA transformatorlarla əvəz olunub. Eyni zamanda, "Ələt" yarımstansiyasında 15 MVA transformator 25 MVA transformatorla, "Əhmədli" yarımstansiyasında 40 MVA transformator 80 MVA, 63 MVA transformator 80 MVA transformatorla, "Zabrat" yarımstansiyasında 63 və 40 MVA transformatorlar 80 MVA transformatorla əvəz edilib. Ümumilikdə isə son 6 ayda yarımstansiyalar üzrə 249 MVA güc artırılıb.

"Azərenerji" ASC "Cənub" Elektrik Stansiyasında (ES) görülən işlər nəticəsində itirilmiş 200 MVt gücü bərpa edib. Qurumdan verilən məlumata görə, "Azərenerji" ASC Reabilitasiya Proqramına uyğun olaraq, ölkə elektrik enerjisi sistemi üzrə "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə apardığı işləri davam etdirir. Qoyuluş gücü 780 MVt olan "Cənub" ES sentyabr ayında təhvil alınan zaman stansiyanın yükü 520 MVt olduğu halda, görülən işlər nəticəsində güc 720 MVt-a qaldırılıb və 200 MVt itirilmiş güc bərpa edilib. Lakin "Azərenerji" ASC stansiya üzrə əldə edilən bu nəticə ilə kifayətlənmək fikrində deyil və əlavə tədbirlərini davam etdirir. Reabilitasiya Proqramına uyğun olaraq, hazırda Hacıqabul rayonunda yerləşən qazpaylayıcı stansiyadan Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasına 25 kilometr məsafədə 530 diametrli yeni qaz xətti çəkilir. Buna səbəb isə əvvəl kənardan alınan qazın keyfiyyətinin aşağı olması ilə yanaşı, istehsal prosesində bəzi problemlərin yaranması olub. Hazırda "Cənub" ES-də hər birinin gücü 5 MVt olmaqla 2 ədəd qaz kompressoru işləyir, onlar qazın təzyiqini 6 atmosferdən 25 atmosferə qədər qaldırmalı olur. Bu isə orta hesabla ay ərzində 7 milyon kilovatsaat elektrik enerjisi sərfinə gətirib çıxarır. Yeni xətt çəkiləndən sonra qaz birbaşa turbinə daxil olacaq və həmin kompressorların işləməsinə ehtiyac qalmayacaq. Bununla da həm istehsal prosesində sərf edilən aylıq 7 milyon kilovatsaat elektrik enerjisinə qənaət ediləcək, həm də həmin 7 milyon kilovatsaat elektrik enerji yükü ümumi sistemə ötürüləcək. Ən əsası isə bununla "Cənub" Elektrik Stansiyasının etibarlığı və dayanıqlığı artırılmaqla yanaşı, itirilmiş gücün bərpası istiqamətində daha bir addım atılmış olacaq.

"Azərenerji" ASC-nin son aylarda həyata keçirdiyi mühüm işlərdən biri də "Səngəçal" Elektrik Stansiyasında da "itirilmiş" gücün bərpa edilməsi istiqamətində görülən işlərdir. Reabilitasiya Proqramı çərçivəsində digər elektrik stansiyalarında olduğu kimi, bu stansiyada da mühüm işlər görülür. Peabilitasiya Proqramına qədər "Səngəçal" Elektrik Stansiyasında mövcud 18 aqreqatdan 4 ədədi, ümumiyyətlə, işləmirdi, qalan 14 aqreqat isə kəsirlə işləyirdi. Məhz həmin 14 aqreqatın mühərriklərində aparılan təmir işləri nəticəsində 30 MVt "itirilmiş" güc bərpa edilib. Eyni zamanda, işləməyən 4 aqreqatdan biri yenisi ilə əvəz edilib, digər aqreqatın isə ehtiyat hissələri gətirilərək sazlama işləri aparılıb və işə qoşulub.

Həmin işləməyən 2 aqreqatın işə düşməsi nəticəsində əlavə 32 MVt "itirilmiş" güc bərpa edilib. Bununla da Reabilitasiya Proqramı çərçivisində "Səngəçal" Elektrik Stansiyası üzrə itirilmiş gücün bərpası 62 MVt-a çatdırılıb. Ümumilikdə isə ilin sonuna qədər "Səngəçal" ES-də aparılan işlər nəticəsində 90 meqavat "itirilmiş" güc bərpa olunacaq və bununla da, Bakı da daxil olmaqla, ölkənin elektrik təchizatının etibarlığı və dayanıqlığı üçün daha bir addım atılmış olacaq.

Məlum olduğu kimi, "Azərenerji" ASC Reablitasiya Proqramı çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası başda olmaqla əksər istilik, su və kiçik elektrik stansiyalarında yenidənqurma, təmir-bərpa işləri həyata keçirir.

"Azərenerji" ASC tərəfindən etibarlılıq və təhlükəsizliyi gücləndirmək üçün enerji sisteminin Dispetçer İdarəetmə Mərkəzinin yenidən qurulması da diqqəti çəkir. Bununla qurumun məqsədi ölkənin enerji sisteminun həm idarəetmə, həm də kiber hücumlara qarşı daha dayanıqlı olmasını təmin etməkdir. Bildirilənə görə, artıq yüksəkgərginlikli elektrik ötürmə xətləri və yarımstansiyalarda qəzaların qarşısını almaq məqsədilə gərginliyin kəskin düşməsinin qarşısını alan mikroprossesor texnikası əsasında əks-qəza avtomatikası işə salınıb.

"Azərenerji" ASC-nin həyata keçirdiyi Reabilitasiya Proqramı çərçivəsində görülən işlərin kiçik bir qisminə nəzər saldıq. Fikrimizcə, qurum bu mühüm prorqamın fəaliyyətini yeni-yeni layihələrlə daha da genişləndirəcək. Əsas odur ki, istehlakçılar, enerji istifadəçiləri qurumun fəaliyyətindən, göstərdiyi xidmətdən narazı deyil.

***İradə SARIYEVA***

**Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BALAKİŞİYEV RÖVŞƏN SALEH oğlu**



22 dekabr 1968-ci ildə Azərbaycan Respublikasının Yevlax rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Yevlax rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Balakişiyev Rövşən Saleh oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 12 iyul 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balakişiyev Rövşən Saleh oğlu 12 iyul 1992-ci il tarixində Ağdərə rayonunun Kasapet (indi Çıraqlı) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balakişiyev Rövşən Saleh oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALAMMƏDOV İLQAR İSA oğlu**



29 sentyabr 1973-cü ildə Azərbaycan Respublikasının Şəki rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şəki rayonunun Baş Zəyzid kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Balammədov İlqar İsa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 may 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balammədov İlqar İsa oğlu 8 may 1994-cü il tarixində Tərtər rayonu ərazisində 3-cü sovxoz adlanan yerdə (üzümçülük sahəsi) erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Balammədov İlqar İsa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALASOLTANOV KAMRAN ŞÜKÜR oğlu**



14 aprel 1971-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Nəsimi rayonunda yaşamışdır. Nəsimi RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Balasoltanov Kamran Şükür oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 11 aprel 1994-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balasoltanov Kamran Şükür oğlu 11 aprel 1994-cü il tarixində Ağdam rayonunun Güllücə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balasoltanov Kamran Şükür oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALAŞOV FAİQ SƏMİD oğlu**



20 avqust 1970-ci ildə Azərbaycan Respublikasının Neftçala rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Əli Bayramlı (indi Şirvan) şəhərində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Balaşov Faiq Səmid oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 15 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balaşov Faiq Səmid oğlu 15 fevral 1994-cü il tarixində Kəlbəcər rayonunda Murovdağ istiqamətində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balaşov Faiq Səmid oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Əgər bütün milli qəhrəmanlarımız barədə məlumat verən vahid internet resursu yoxdursa...

## *Gənclərin vətənpərvər ruhda böyüməsi və tərbiyə olunması vacib şərtlərdən biridir*

**Bu bir danılmaz faktdır ki, hər bir ölkənin gələcəyi onun yetişməkdə olan gəncliyindən asılıdır. Yəni yetişməkdə olan gənc nəsli milli ruhda, dövlətə, Vətənə məhəbbət hisində böyüdə bilsən, o zaman dövlətin gələcəyi parlaq, işıqlı olacaq. Əks təqdirdə isə istənilən bir ölkənin xoş gələcəyindən danışmaq yersiz olar. Ona görə də, yuxarıda qeyd etdiyimiz kimi, gənclərin sağlam ruhda, vətənpərvər, dövlətə, millətə bağlı şəkildə böyüdülməsi. tərbiyə olunması vacib şərtlərdən biridir.**




Vətənimiz Azərbaycanda bütün dövrlərdə gənclərin vətənpərvər, milli ruhda böyüdülməsi, tərbiyə olunması aktual olub və günümüzdə də bu məsələ öz aktuallığını qoruyub-saxlayır. Çünki dövlətin gənclər siyasətinin təməlində məhz qeyd etdiyimiz məqam dayanır.

Əgər nəzər alsaq ki, vətənpərvərlik, dövlətə, millətə bağlılıq məktəbdən, bağçadan başlayır, o zaman qeyd edilən istiqamətlərdə hər zaman işləməyin zəruriliyi ön planda olar. Onu da vurğulamaq lazımdır ki, Azərbaycanda bu sahədə də vəziyyəti qənaətbəxş hesab etmək olar. Etiraf edək ki, bu gün orta və ali təhsil müəssisələrində gənclərimiz vətənpərvər ruhda tərbiyə olunur. Məktəblərdə tez-tez keçirilən maarifləndirici tədbirlərin də bu mənada xüsusi əhəmiyyəti var.

Bir məsələyə də diqqət çəkmək lazımdır. O da vətəndaş cəmiyyəti nümayəndələri, qeyri-hökumət təşkilatlarının qeyd etdiyimiz istiqamətdə fəaliyyətidir. Etiraf edək ki, qeyri-hökumət təşkilatları da gənclərin vətənpərvər ruhda tərbiyə olunması üçün kifayət qədər işlər görür, layihə həyata keçirirlər. Ancaq onu da təəssüf hissi ilə qeyd etmək lazımdır ki, hələ də bu sahədə problemlərimiz var. Yeni, gənclərimiz müəyyən zaman kəsimində yad təsirlərə, xarici qüvvələrin təsir dairəsinə düşərək vətənpərvərlik hisslərindən uzaqlaşır, dövlətə, millətə bağlılıq hissini unudurlar. Ona görə də bu gün biz vətənpərvərlik mövzusunda gənclərimizin problemlərinin olduğunu deyiriksə demək görülən işlər qənaətbəxş deyil. O da bir danılmaz faktdır ki, bütün problemlərin başında sevgisizlik durur. Sevgiyi öyrətməliyik gənclərimizə. Valideynlərə, övladlara, yaxınlara, uzaqlara, ətrafımızdakı canlı aləmə və son nəticədə vətənə. Vətənini, millətini, valideynlərini sevən insan heç kimin toruna düşməz, vətənini satmaz. Gənclərimizin başqa dairələrin toruna düşməməsi, yad təsirlərə məruz qalmaması üçün onları özümüz, bildiyimiz kimi, milli vətənpərvərlik ruhunda tərbiyə etməliyik. Təhsilimizi daha da gücləndirməliyik. Ciddi milli vətənpərvərlik ruhunda telelayihələr üstünlük verməli, şou aləminin təsirindən, şou əhlinin təsirinə düşməkdən onları qorumalıyıq. Milli musiqi dinləməyi, muğamı sevməyi, bayrağımızı və digər milli atributlarımızı sevməyi, himnimizin mətnini əzbər bilməyi, gərəkirsə vətən üçün ölməyi öyrətməliyik. Əgər ölkədə bütün milli qəhrəmanlarımız barədə informasiya verən vahid internet resursu yoxdursa, milli mənəvi dəyərləri aşılayan veb səhifələr, bloqlar yoxdursa (və ya təbliğ edilmirsə) demək görülən işlər çox zəifdir və daha çox çalışmaq lazımdır. Gənclər təşkilatları, QHT-lər müəyyən işlər görməyə çalışırlar. Amma bu da yetərli deyil. Bu mövzularda daha aktiv olmaq lazımdır. Bu sahədə daha çox layihələr işlənməlidir. Nazirliklər, milli donor təşkilatlar bu sahənin təbliğini nəzərdə tutan layihələrə daha çox üstünlük verməlidirlər. İbtidai siniflərdən başlamaq lazımdır maarifləndirici tədbirlərə. Mütəmadi tarixi abidələrə ekskursiyalar təşkil edilməli, övladlarımızı gələcəyə hazırlamaq lazımdır və hesab edirəm ki, bu məsələdə gənclər təşkilatlarının və QHT-lərin ciddi rolu olabilər.

Gənclərin milli ruhda, vətənpərvər böyüməsi istiqamətində kütləvi informasiya vasitələri, televiziyaların da üzərinə məsuliyyət, iş düşür. Ancaq, o da bir acı həqiqətdir ki, televiziyalar gündəlik şou proqramlara ayırdıqları vaxtın onda biri heç vətənpərvərlik mövzusuna həsr edilmir. Ancaq unutmaq lazım deyil ki, televiziyalar və kütləvi informasiya vasitələrinin gənclərimizin maarifləndirilməsində çox mükəmməl rolu ola bilər.

Öz növbəsində, Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı gənc nəslin vətənpərvər ruhda tərbiyəsində əsas rollardan birini oynayır. Bunu son illərdə bariz görürük. Belə ki, ildən-ilə hərbiçi olmaq istəyən gənclərimizin sayı durmadan artır. Ordumuzun son illərdəki daha da mohkəmlənməsi, Ermənistan silahlı qüvvələri qarşısında daha sayıq durması da bunun əyani sübutudur.

Hər şeydən öncə isə vətənpərvər gənclər ordusu yetişdirmək istəyiriksə, gəncliyimizdə kitaba maraq artırılmalıdır. Milli vətənpərvərlik mövzusunda telelayihələr hazırlanmalı, tədbirlər, konfranslar mütəmadi keçirilməlidir. Əgər istər paytaxtda, istərsə də əyalətlərdə gənclər, məktəblilər arasında sorğu keçirsək görərik ki, böyük əksəriyyət tarixi abidələrimiz, yerlərimiz, ümumilikdə tariximiz barədə minimum səviyyəli biliklərə malikdirlər. Təəssüflər olsun ki, Gəncə xanlığını, Talış xanlığını, Səfəvilər dövlətini, Şirvanşahlar sarayını, Qız qalasını, Babəki, Şirvanşah İbrahimi, Şah İsmayıl Xətaini, Nəriman Nərimanovu, Əlimərdan bəy Topçubaşovu, Məhəmməd Əmin Rəsulzadəni və daha onlar kimi tariximiz olan dəyərli ediblər, tarixi şəxsiyyətləri tanımayan, bilməyən gənclərimiz var.

*Süleyman*

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

**Azərbaycanda kənd təsərrüfatı təyinatlı pay torpaqları olan insanların həmin torpaqları birləşdirərək onlardan müasir tipli mülkiyyət formaları - kənd təsərrüfatı artelləri yaratması təklif edilir. Belə bir təklifi Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun Ekocoğrafiya şöbəsinin müdiri, kənd təsərrüfatı elmləri namizədi Ənvər Əliyev media nümayəndələrinə açıqlamasında qeyd edib.**

# Azərbaycanda kənd təsərrüfatı pay torpaqlarının birləşdirilməsi yenidən aktuallaşır...



O bildirib ki, rayonlarda pay torpaqları olan insanların əksəriyyəti ya onlardan istifadə etmir, ya da onları kimsəyə ucuz qiymətə icarəyə verir. Amma həmin insanlar birləşərək pay torpaqlarının hesabına təsərrüfat birliyi yaradarlarsa, torpaqlarından daha səmərəli istifadə edə bilərlər. Bu, kəndlərdə yaşayan insanların məşğulluğunu təmin etməklə yanaşı, şəhərlərə axının da qarşısını alar: "Belə təsərrüfat birlikləri dünyanın bir çox ölkəsində mövcuddur. İvanovkada bu tipli təsərrüfat sistemindən olduqca gözəl nəticələr əldə edirlər. Kənddə hər kəsin vətəndaş olaraq mülkiyyət payları var və onlar bundan kifayət qədər gəlir əldə edə bilirlər. Belə artelləri Azərbaycanın coğrafi xüsusiyyətlərini nəzərə almaqla, istənilən rayonda yaratmaq olar. Məsələn, Şamaxıda artellər yaratmaqla üzümçülük sahəsini inkişaf etdirmək olar. Vaxtilə Şamaxı rayonunda il ərzində 300 min tona yaxın üzüm istehsal edilib, Sovet dövründə Azərbaycanda büdcə gəlirlərinin 30 faizi üzümçülükdən əldə edilib".

## *Qadir Bayramlı: "Pay torpaqları birləşdirilərək təyinatı üzrə istifadə olunarsa, bunun aqrar sahədə müsbət təsiri olar"*

**Pay torpaqlarının təyinatı üzrə istifadə olunmasının əhəmiyyəti barəsində danışan Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, pay torpaqlarının könüllü şəkildə birləşdirilməsi yaxın müddət ərzində real olmayacaq:** "İnsanlar elə düşünürlər ki, ixtiyarında olan pay torpaq onun əlindən alınacaq və torpağı üzərindən səlahiyyətini itirəcək. Ancaq pay torpaqları ilə bağlı əhali arasında maarifləndirmə işi aparmaq lazımdır ki, bunun müsbət nəticəsi olacaq. Bu sahədə çoxlu sayda iş aparmaq lazımdır ki, əhali pay torpaqlarının birləşdirilməsində maraqlı olsun".

*"Pay torpaqları birləşdirilsə, təsərrüfat sahələri böyüyər"*

Həmsöhbətimiz hesab edir ki, pay torpaqları birləşdirilərək təyinatı üzrə istifadə olunarsa, bunun aqrar sahədə müsbət təsiri olar: "Pay torpaqları birləşdirilsə, təsərrüfat sahələri böyüyər. Nəzərə almaq lazımdır ki, böyük təsərrüfatlarda müasir təsərrüfat üsullarının tətbiqi daha asan olacaq. Böyük təsərrüfat sahələrinin olması aqrar sahənin inkişaf etməsinə səbəb olacaq".

***Günel CƏLİLOVA***

**Hər bir uşağın fiziki və əqli cəhətdən sağlam olması ən vacib məsələlərdən biri olsa da, təəssüf ki, biz bunu son on ildə doğulan bütün uşaqlara şamil edə bilmirik. Uşaqların xeyli hissəsi müəyyən xəstəliklərlə doğulur, bəziləri isə 1 yaşdan sonra müxtəlif problemlərlə üzləşirlər.**

# Azərbaycanlı oğlan uşaqlarında yerimə və danışma defektləri çoxalır



Valideynləri ən çox narahat edən məsələlərdən biri uşaqlarının gec yeriməsi və gec danışmasıdır. Bir çox valideyn qeyd edir ki, uşaqları yeriməyə və danışmağa qətiyyən meyl etmirlər. Bəzi mütəxəssislərin fikrincə, bu hal daha çox oğlan uşaqlarında müşahidə edilir.

Nevroloqların bildirdiyinə görə, nitqdə və yerimədə mövcud olan problemlərin başlıca səbəbi uşaqlarda müşahidə edilən nevroloji problemlərlə əlaqədardır.

Bundan başqa, uşaqlar arasında geniş yayılan problemlərdən biri kəkələmə ilə bağlıdır ki, bu da valideynləri ciddi narahat edir.

Mütəxəssislər bildirirlər ki, artıq 1 yaşında uşaqlar addım atmağı bacarmalı və bir neçə sözü təkrarlaya bilməlidirlər. İki yaşın sonunda isə onlar sərbəst gəzməklə yanaşı, daha mürəkkəb və incə hərəkətləri edirlər. Həmçinin, söz ehtiyatları çoxalmış olur, kəlmələr və cümlələr qururlar. Artıq 2 yaşda ifadəli və 3 yaşda isə əlaqəli nitqin formalaşmaması onlarda nitqin inkişafdan qalmasını göstərir.

Bəzi ekspertlər nitqin və yerişin ləngiməsinin digər səbəbi kimi genetik faktorları göstərirlər.

Ekspertlərin bir çoxu hesab edir ki, oğlan uşaqlarında bu kimi hallara daha sıx-sıx rast gəlinməsinin səbəbi çoxdur. Onlara görə, oğlanlar, qızlardan fərqli olaraq, danışmaqda, yeriməkdə, ünsiyyətdə elə də aktiv deyillər. Gec yerimə, gec danışma kimi vəziyyətin oğlanlarda daha çox müşahidə edilməsi halları geniş yayılıb.

**Tanınmış pediatr Vaqif Qarayev isə hesab edir ki, gec yerimə və gec danışma kimi narahatlıq doğuran halların daha çox oğlan uşaqlarında müşahidə edildiyini demək doğru deyil.** "Hesab edirəm ki, gec yerimə və gec danışma probleminin daha çox oğlan uşaqlarında müşahidə edilməsi ilə bağlı deyilənlər doğru deyil. Ancaq uşaqlar arasında nitq pozğunluğu həddindən artıq geniş yayılıb. Doğulduğu gündən uşaq həkim nəzarətindədirsə və onu aybaay müşahidə edirsə, uşaqda ciddi problem olursa, onu valideynə deyir. Hamiləliyi ağır keçən qadınlar daimi olaraq həkim müayinəsindən keçməlidirlər. Nitqdə olan pozğunluq daha çox 2 yaşdan sonra özünü göstərməyə başlayır. Çünki bu yaşda uşaq bir sıra sözləri deməli, hətta cümlə qurmağı bacarmalıdır, deyilənləri başa düşməlidir və s. Bunlar yoxdursa, onda gərək həmin uşaq ciddi müayinə olunsun. Amma bu problem həmişə tibbi sahə ilə bağlı olmur. Bunu yaradan başqa amillər var. Bu gün internet, telefon, planşet bütün dünyanın bəlasıdır. Uşaq dil açmağa başlayandan valideynlər müntəzəm olaraq uşaqla danışmalıdırlar. Özü də bir dildə. Yaxşı olardı ki, uşaqlarla ünsiyyət ana dilində olsun".

## *Vaqif Qarayev: "Uşaqlarda yerimə və danışmanın ləngiməsinin bir səbəbi də valideynlərin uşaqları ilə danışmaması və onları erkən "xodunoka" qoymasıdır"*

V.Qarayev hesab edir ki, uşaqların bir qisminin nitqində yaranan problem nevroloji əlamətlərdirsə, digər səbəbi ailə üzvləri tərəfindən onlarla ünsiyyət qurulmamasıdır. Mütəxəssisin sözlərinə görə, uşaqların niqtinin inkişaf etməməsi çox zaman bir ailədə müxtəlif dillərdə danışılmasıdır. Valideynlərin bir çoxu uşaqla danışmaq əvəzinə, onların saatlarla planşetdən istifadə etməsinə, televizora baxmasına imkan verir. "Saatlarla televizor və internet qarşısında qalan uşaqlar da danışmır. Bizə müraciət edib deyirlər ki, uşağımız hər şeyi başa düşür, ancaq danışmır. Dil icra vasitəsidir. Valideynlər uşağa nəsə deyir, amma ondan heç nə soruşmurlar. Gününü televizor qarşısında və planşetlə keçirən uşaq təbii ki, danışmayacaq. Bu çox ciddi məsələdir. Uşaqları danışdırmaq lazımdır. Valideynin başı sakit olsun deyə uşaqları televizora, planşetə yaxın buraxmaq olmaz. Bu, uşaqlara ciddi ziyan vurur. Digər şikayətlər ondan ibarətdir ki, valideyn "uşağım normal danışırdı, indi ya danışmır, ya da Türkiyə türkcəsində danışır" deyirlər. Bilirsiniz, uşağın dili bir dildə açılmalıdır. Uşaq saatlarla Türkiyə seriallarına baxır. Bu gün öz ana dilimizdə cizgi filmləri, nağıllar yoxdur, bu da ciddi məsələdir".

Uşaqların yeriməsində ləngimələrin olmasına gəlincə, o qeyd etdi ki, adətən uşaqlar 1 yaşında yeriməlidir, ancaq son vaxtlar uşaqların yaş yarıma qədər yeriməsini gözləmək olar. Həkimin sözlərinə görə, uşaqların aybaay fiziki inkişafının parametrləri var. "Bu göstəriciləri isə ancaq həkim təyin edir. Məsələn, 9 aylıq uşaq sərbəst durmalıdır, dayanmalıdır. 6 aylıq uşaq sərbəst oturmalı, 7-8 ayında isə iməkləməlidir. Uşaq ayına və yaşına nisbətən geridə qalırsa, artıq valideyn mütəxəssisə müraciət etməlidir. Bizdə belə bir tendensiya yayılıb, valideynlər deyirlər ki, uşağıma kalsium təyin et, yaxud həkimlə məsləhətləşmədən apteklərdən kalsi alırlar. Soruşursan ki, niyə kalsium istəyirsiniz? Deyirlər ki, vərək sümüyü bərkisin. Kökündən yanlış məsələdir. Həkim məsləhəti olmadan uşaqlara kalsium vermək olmaz. Uşaqlarda yeriməməklə bağlı problemə gəlincə, deyim ki, bu yalnız sümüklə bağlı deyil. Uşaqların əzələ-oynaq sistemində ciddi problem ola bilər. Yəni bunu həkim təyin edir. Uşaqların gec yeriməsi, yaxud yeriməyə meylli olmamasının səbəblərindən biri də onların vaxtından tez "xodunoka" oturdulmasıdır. Uşaq ayaq üstə dura bilmirsə, onu "xodunoka" qoymaq düzgün deyil. Uşaq dayanmağı bacarırsa, onu addım atmağa öyrətmək üçün 5-10 dəqiqə ora qoymaq olar. Amma saatlarla uşağı "xodunoka" qoyurlarsa, onda artıq uşaq tənbəlləşir və yerimək istəmir. Belə uşaqlar ayağını sərbəst yerə qoya bilmir. Bu kimi hallar müşahidə olunduqda dərhal mütəxəssisə müraciət etməlidirlər. Özbaşına iş görməsinlər. Uşaqlarda yerimə və danışmanın ləngiməsinin bir səbəbi də valideynlərin uşaqları ilə danışmaması və onları erkən "xodunoka" qoymasıdır. Bizdə mövcud olan bəlalardan biri də internet bəlasıdır. Biri internetdə yazır ki, mənim uşağım yerimirdi, filan dərmanı verdim, düzəldi. Məsələ burasındadır ki, yerimənin problemləri müxtəlifdir. Valideynlər internetdən adını öyrəndiyi dərmanı uşağına verir və nəticədə vaxt gedir, müalicə də düzgün getmir" - deyə müsahibimiz qeyd etdi.

*"Həkim məsləhəti olmadan uşaqlara kalsium vermək olmaz"*

***İradə SARIYEVA***

№ 109 (4007) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

22-24 İYUN 2019-cu il

www.baki-xeber.com

## Uşaqlar üçün ən faydalı qida

**Bildirçin yumurtası öz faydaları ilə insanların sevimli qidasına çevrilib. "Axşam.az" xəbər verir ki, bu məhsul öskürək, astma kimi xəstəliklərlə yanaşı, uşaqların iştahsızlıq problemi ilə də mübarizə aparır.**

Tərkibindəki çoxsaylı vitamin və minerallar olan bildirçin yumurtası dərini gözəlləşdirir, immuniteti artırır, uşaqlarda beyin inkişafını dəstəkləyir, yaddaşı gücləndirir. Bildirçin yumurtasının tərkibində toyuq yumurtasından daha çox fosfor və dəmir olduğunu bilirdinizmi? Dadları eyni olsa da, bildirçin yumurtası insan orqanizminə daha çox faydalıdır.

Yumurtanı suda bişmiş şəkildə yemək tövsiyə edilir. Bişirmək üçün 4-5 dəqiqə suda qaynatmaq kifayətdir. Uzun müddət bişirildikdə tərkibindəki vitaminlər parçalanır. Böyüklərdə bronxit zamanı 1 fincan südə 1 çiy yumurta, 1 ç.q bal əlavə edərək içmək çox faydalıdır.

## Yay tətilində xaricə üz tutanlar üçün "Nar"dan sərfəli rominq paketləri

**Hər zaman abunəçilərinin dinamik tələblərinə cavab verən mobil operator "Nar" yay tətilini xaricdə keçirən müştəriləri üçün sərfəli rominq paketləri təqdim edir. Müxtəlif ehtiyaclara uyğun sərfəli qiymətə təqdim olunan 4 rominq paketindən yararlanmaq üçün səfərə çıxmazdan əvvəl rominq paketlərindən birini sifariş etmək kifayətdir.**




Təqdim olunan "Roaming 9" paketi abunəçilərə 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, "Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" yazışmaları tamamilə pulsuzdur, yəni bu trafik sizin internet paketinizdən çıxılmayacaq.

Şifariş edilən paketdaxili internet və dəqiqənin balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq lazımdır. "Roaming 9", "Roaming 15" paketlərinin istifadə müddəti 5, "Roaming 18" və "Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

**Elan**

Şəki şəhər sakini Ramazanov İsə Gəray oğlunun adına verilmiş 5857/ 244 saylı ev qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hümbətova Günel Məhəddin qızına verilmiş attestat itdiyinə görə etibarsız sayılır.



## Günəşin ətrafında çox nəhəng yadplanetli gəmilər...

**Son dövrlər Günəşin ətrafında nəhəng, kubşəkilli, üçbucaq formalı obyektlərin görünməsi barədə xəbərlərə rast gəlinir.**

"Ölkə.az" bildirir ki, bütün bu xəbərlər UNO-ların mövcudluğunu bir daha təsdiqləyir. NASA və ESA kimi kosmik agentliklərin SOHO aparatının kamerası belə müxtəlif videoları lentə alıb. Kadrlardakı gəmilərin ölçüləri insanı heyrətə salır. Bu ölçüləri görənlər, hətta ufologiyanı tənqid edənlər də bildirir ki, sözügedən obyektlər əl ilə inşa edilib. Amma müasir elm bunu qəbul etmir. Bununla belə, bu obyektlər formalarına görə təbiət hadisəsinə bənzəmir. Məsələn, kvadrat, düzbucaqlı və daha mürəkkəb həndəsi fiqura bənzəyən obyektlər görünür. Bu yaxınlarda isə Günəşin ətrafında raketə bənzəyən, ulduzdan uçan bir obyekt görünür. Maraqlıdır ki, bu raketin diametri planetimizin diametrindən 4 dəfə böyükdür.

## 70 karat çəkidə olan almaz daşına "Saxalin" adı verildi



**Rusiyada 70 karat çəkidə olan almaz nümayiş etdirilib. "AZƏRTAC" bildirir ki, Rusiya Dövlət Qiymətli Metal və Daşlar Fondunun Formalaşdırılması İdarəsi 70 karat çəkidə olan almaz daşını Saxalin adasının şərəfinə adlandırıb.**

Çəkisi Saxalinin ərazisinə (76 min kvadratkilometr) uyğun olan qiymətli daşa adanın adı verilib. Saxalində keçirilən sərgidə təqdim olunmuş qiymətli daş Rusiya Almaz Fondunda saxlanılacaq. Qeyd edək ki, dünyada 20 karatdan artıq çəkisi olan iri almaz daşlarına adlar verilməsi ənənəsi mövcuddur. Rusiya Almaz Fondunda saxlanılan ən böyük almaz daşının çəkisi 342,57 karatdır. 1980-ci ildə tapılan daşa "Sovet İttifaqı Kommunist Partiyasının XXVI qurultayı" adı verilib.

## Köhnə təyyarəni alıb özünə ev qurdu

**Amerikanın Oreqon ştatında təqaüdə çıxmış elektik mühəndisi köhnə təyyarəni alıb ondan özünə qeyri-adi bir ev düzəldib.**

"Sherg.az" bildirir ki, Brüs Kampel adlı bu şəxs hazırda o təyyarədə yaşayır. Məlum təşəbbüslə bağlı danışan Brüs Kampel qeyd edib ki, o köhnə təyyarəyə ikinci həyat, nəfəs bəxş edib: "Əgər bir təyyarə uçmursa, onu dağıtmaq olmaz. Ondan maraqlı ev qurmaq mümkündür. Mənim qurduğum ev də çox maraqlı evdir və mən bu evdə çox rahatam".





**Qoç** - Günü ailə üzvlərinizə və özünüzə həsr edin. Böyük dəyişikliklər olmayacaq və sizdən də əlahiddə səylər tələb edilməyəcək. İzafi emosionallıq və hissiyyat sakitlik, hərəkət, diqqət və qayğı tələb edir.



**Buğa** - Gün təmaslar, danışıqlar və xəbərlər baxımından zəngin olacaq. Çox iş görməli, müxtəlif tapşırıqları yerinə yetirməli, nəyisə tapmalı və ya təşkil etməlisiniz. Effektivlik orta səviyyədən aşağı olmasın deyə, tənbəllik etməyin.



**Əkizlər** - İfrat dərəcədə aktiv olmayın, rutin işlərlə məşğul olun və belədə gün uğurlu keçəcək. Özünüzü narahat hiss etdiyiniz yerdə çox qalmayın. İncikliyə yol verməyin, səhih danışmağa çalışın.



**Xərçəng** - Problemlər öz-özünə həllini, suallar da cavablarını tapacaq. Yeni perspektivlər yarana bilər. Münasibətlərdə ikili standartlar və ya tərəfdaşınızın, iş yoldaşınızın sizi aldatmağa çalışdığını hiss edəcəksiniz.



**Şir** - Yalana düçar olacağınız situasiyaya düşməməyə çalışın. Sizi dilə tutaraq müəyyən məsələ ilə bağlı öhdəliyə nail olmağa çalışacaqlar. Bilin ki, razılıq versəniz, sonradan ciddi problemlə qarşılaşacaqsınız.



**Qız** - Bir yerdə dayanmadığınız, ətalətdə olmadığınız üçün bu gün sizi mükafatlandıracaq, mənəvi əhəmiyyət kəsb edən hadisə baş verəcək. Ola bilər ki, nədənsə əl çəkəsiniz, hansısa məsələdə güzəştə gedəsiniz.



**Tərəzi** - Hadisələrin gedişatı və olayların məcrası indi sizə aydın olsa da, yaşananlar bir anlıq olsa da, narahatlıq yarada bilər. Çünki, bütün bunları istəmirdiniz, ehtimal etmirdiniz.



**Əqrəb** - Hadisələrin gərginləşəcəyi, əsəblərin tarıma çəkiləcəyi, işlərdə və hisslərdə qeyri-stabilliyin olacağı gündür. Münasibətlərdə əminlik hiss etmədiyiniz insanla çox açıq və səmimi danışmayın.



**Oxatan** - Maliyyə məsələləri və ödənişlərdə diqqətli olun. İmpulsiv qərarlar verməyin. İşlə bağlı narahat fikirlər və maddi perspktivlərdən qaynaqlanan qayğıları daha konstruktiv məcraya yönəldin.



**Oğlaq** - İndi bir çox situasiyalarda dominant rolu oynamaq istəyirsiniz. Şərti məqamların üstündən keçməməyə, üstünlüyünüzü nümayiş etdirməməyə çalışın, yaxın ətrafınızdakı insanların hisslərinə daha çox diqqət verin.



**Dolça** - Bu günü ailə üzvlərinə, evdə bayram əhval-ruhiyyəsinin davamına həsr edin. Dostları qonaq çağırın. Emosional qeyri-stabillik alış-verişdə bədxərcliyə vadar edə bilər. Soyuqqanlı və məntiqli olun.



**Balıqlar** - Ay sizin hissiyat və emosionallığınızı artıracaq. Gün mahiyyət etibarilə rahat olacaq, məhsuldar qarşılıqlı əlaqələr, faydalı informasiya mübadiləsi və dəstək mühiti yaradacaq. Bir çox məsələləri qeyri-rəsmi şəraitdə müzakirə etmək olar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ailəyə dəstək siyasəti üzrə ən yaxşı ölkələr...

**Portuqaliya Avropa İttifaqına və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv dövlətlər arasında ailəyə dəstək siyasəti üzrə ən yaxşı beşinci ölkədir.**

"AZƏRTAC" bildirir ki, tədqiqata daxil edilən 41 ölkə arasında Portuqaliya atalıq məzuniyyətinin müddətinə görə üçüncü yeri tutur: portuqaliyalı kişilərə 12,5 həftə ödənişli məzuniyyət verilir. Elə həmin hesabatda göstərilir ki, bir çox valideynlər tam lisenziyadan istifadə etmirlər. Portuqaliyada isə bu göstərici təqribən 60 faiz təşkil edir. Hesabatda xatırladılan ölkələrdən səkkizində - ABŞ, İsveçrə, Slovakiya, Yeni Zelandiya, İsrail, İrlandiya, Çex Respublikası və Kiprdə atalığa görə ödənişli məzuniyyət verilmir. Portuqaliya yeddinci ölkədir ki, burada üç yaşınadək uşaqların əksəriyyəti (50 faizi) bağçalara qəbul olunur. Üç yaşından altı yaşınadək portuqaliyalı uşaqların 92 faizi artıq məktəbə gedir. Portuqaliya bu yaşda məktəbə gedən uşaqların sayına görə 11-ci ölkədir.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.